# OXU TƏLİMİ

**Müəllimlər üçün vəsait**

# Mündəricat


Oxu təlimi nədir? ...........................................................................3

1. Oxunun xüsusiyyətləri.....................................................................5
2. Oxu modelləri.................................................................................8
3. Səmərəli oxu üsulları .....................................................................15
4. Oxuya verilən tələblər ...................................................................25
    4.1. Düzgün oxu .............................................................................26
    4.2. Sürətli oxu................................................................................27
    4.3. Şüurlu oxu ...............................................................................29
5. Bədii və informativ mətnlərin oxusu..................................................30
    Bədii mətnlərin oxusu.....................................................................30
    5.1. Hekayənin oxusu.......................................................................30
    5.2. Nağılın oxusu.............................................................................32
    5.3. Təmsilin oxusu...........................................................................34
    5.4. Şeirlərin oxusu...........................................................................36
    İnformativ (elmi və publisistik) mətnlərin oxusu.....................37
6. Oxucu növləri...................................................................................42
7. Oxucu xüsusiyyətləri.........................................................................43
8. Oxu zamanı əməkdaşlıq....................................................................44
9. Oxu xətaları.....................................................................................45
10. Disleksiya nədir? ............................................................................46

## Oxu təlimi nədir?

Ana dilinin tədrisinin və ümumilikdə təhsilin əsas funksiyalarından biri oxu təlimidir. O, şagirdlərin nitqini, özünüifadə bacarıqlarını (şifahi və yazılı şəkildə) inkişaf etdirir, söz ehtiyatını artırır. Oxu təlimi həm də anlayaraq, düzgün, sürətli və ifadəli oxu vərdişləri qazandırır, məzmunu nəql etmə, təhlil etmə, ona öz münasibətini bildirmə, mətndə verilənləri həyatla əlaqələndirmə və s. kimi bacarıqlar formalaşdırır.

Oxu təlimi ilə bağlı hər kəsin müəyyən qədər təsəvvür və xatirələri var. Çoxumuz hərflərdən hecalar, hecalardan isə sözlər düzəldərək ilk dəfə oxuduğumuz sözləri xatırlayırıq: tut, Tutu, at, baba...

Şagirdlərin təlim nəticələrini yüksəltmək üçün müvafiq strategiya, metod və üsullardan istifadə etmək, mətnin oxusunu düzgün təşkil etmək vacibdir. Oxunun düzgün təşkili dedikdə isə strategiyalı oxu nəzərdə tutulur.

### Strategiyalı oxu nədir?

Strategiyalı oxu ilə bağlı müxtəlif yanaşmalar var. Mütəxəssislərin fikrincə, strategiyalı oxu mətni dərk edərək, düşünərək oxumaqdır. Onlardan bir qismi düşünür ki, strategiyalı oxu şagirdə daha məharətlə düşünməyi öyrədir, bir qismi isə strategiyalı oxunu təlimin əsas məqsədi hesab edir. Yəni bu cür oxu anlamaya, tətbiqə və təhlilə aparan əsas yoldur. Bununla şagird sürətli düşünmək, sual vermək, əvvəlki biliklərin əsasında yeni biliklər qazanmaq, fikir mübadiləsi aparmaq, oxuduqlarından nəticə çıxarmaq və bütün bunlardan həyatda qarşılaşdığı problemlərin həllində istifadə etmək bacarıqlarına yiyələnir.

Strategiyalı oxuda şagird *öz oxu fəaliyyətini özü təşkil və idarə edir*. O, verilən mətnin mənasını dərk etməyi problem, mətnin oxusunu isə problemin həlli kimi görür və beləliklə, məqsədinə nail olmaq üçün öz fəaliyyətlərini düşünülmüş şəkildə təşkil edir, yəni öz strategiyasını qurur.

Oxu strategiyasını qurmağı bacaran şagird mətnin oxusundan gözlənilən nəticəni artıq oxuya başlamazdan əvvəl aydın təsəvvür edə bilir. O, dəqiq bilir:

- Hansı suallar cavablandırılmalıdır?
- Oxu hansı plana əsasən təşkil edilməlidir?
- O, bu haqda artıq nələri bilir?

- Səmərəli oxu üçün nələr etmək lazımdır?

Strategiyalı oxu həm də şagirdə öz oxu nəticələrini yoxlamaq və əldə etdiyi nəticələr üzərində düşünmək imkanı verir. Beləliklə, şagirddə vacib idraki bacarıqlar − əsas ideyanı müəyyən etmək, onları əvvəlki biliklərlə əlaqələndirmək, oxuduğu mətni başqa mətnlərlə müqayisə etmək, mətndə təsvir olunanları təsəvvüründə canlandırmaq kimi bacarıqlar formalaşır. Bunları isə təfəkkürün yüksək mərhələsinə − təxəyyülə doğru atılan addımlar kimi qiymətləndirmək olar. Bununla şagirdlər həm mətni qavrayır, həm də qavrama prosesinin mərhələlərini strukturlaşdırırlar.

## 1. Oxunun xüsusiyyətləri

Tədqiqatlar göstərir ki, oxu savadına yiyələnmək mürəkkəb prosesdir. Bu prosesin müvəffəqiyyətlə keçməsi üçün aşağıdakılar vacibdir:

1. Sözlərdəki səsləri fərqləndirmək;

2. Təkcə hərfləri deyil, səsi də qavramağı öyrənmək, hərf birləşməsini görmək və ona uyğun lazımi səsin tələffüzünü dəyişmək: (na-na), (ru-ru), (li-li);

3. Sözdəki səsləri bütöv şəkildə tələffüz etmək;

4. Sözü tanış olan hər hansı əşya, hərəkət, əlamətin ifadəsi kimi başa düşmək.

Göründüyü kimi, oxu texnikası eşitməyə, görməyə, tələffüzə, təhlilə, sözün mənasına əsaslanan bir prosesdir.

Oxumağa yeni başlayan şagirdin oxu texnikası təcrübəli oxucununkundan fərqlənir. Çünki təcrübəli oxucunun görmə sahəsi, daha konkret desək, "oxu sahəsi" geniş olur. Onlar oxu zamanı gözlərini sətir boyu gəzdirərək yalnız bir neçə dəfə fasilə edirlər. Mətn asan olduqda isə fasilələr azalır, görmə sahəsinə daxil olan hərflərin sayı artır. Bəzən sürət o qədər çox olur ki, insan oxuduğunun məzmununu dərk edə bilmir. Şagirdlər isə bəzən nəinki hərfləri, hətta hecaları da birləşdirməkdə çətinlik çəkir, sözün mənasını tam anlaya bilmirlər. Bu halda şagird "Nailə" sözünü oxuyur, ancaq oxuduğu sözü deyə bilmir.

Oxu texnikasının formalaşdırılmasında eşidərək qavramanın inkişaf etdirilməsinin əhəmiyyəti böyükdür. Çünki səsləri yaxşı fərqləndirə bilməyən uşaq, görmə qavrayışı mükəmməl inkişaf etsə də, sadə sözləri oxumaqda çətinlik çəkir. Fonetik eşitməyə, səsin təhlili vərdişlərinə lazımınca yiyələnməmiş uşaqların oxusu nöqsanlı olur və müstəqil işləyə bilmirlər. Ona görə də oxu prosesində fonetik təhlilə geniş yer vermək lazımdır. Hərflərlə tanış olmazdan əvvəl uşaqlarda danışığı cümlələrə ayırmaq, cümlə qurmaq, cümlələri sözlərə ayırmaq, cümlədə sözlərin sayını və sırasını, sözlərdə hecaların sayını və sırasını müəyyənləşdirmək bacarıqları formalaşır. Oxunun səmərəliliyini artırmaq üçün şagirdlərə həm də sait və samit səsləri xarakterik cəhətlərinə görə fərqləndirməyi öyrətmək vacibdir.

Oxuya xas olan bir neçə xüsusiyyətə nəzər salaq:

1. *Reqressiya*

*Reqressiya* oxunulan hissəni yenidən oxumaq məqsədilə gözlərin geri hərəkətidir. Bu hal oxucular arasında geniş yayılmışıdır. Belə ki, bəzi oxucular oxuduqlarından əmin olmaq üçün özləri də hiss etmədən mətni iki dəfə oxuyurlar. Ləng oxuda həcmi 100 sözdən ibarət olan mətn üçün reqressiyaların sayı 10-15 dəfəyə çatır. Aydındır ki, gözlərin belə tez-tez geriyə hərəkəti oxunun sürətini azaldır. Əksər insanlar həm çətin, həm də asan mətnləri eyni sürətlə oxuyurlar. Amerikalı tədqiqatçılar oxunun məhz bu xüsusiyyətini təhlil edərək yazırdılar: *"Əksər insanlar neft-yağ materiallarının rüb hesabatını da, elmi jurnaldakı yeni avtomobil mühərriki barədə məqaləni də, bədii mətni – A.Heylinin "Çarxlar" romanını da eyni sürətlə oxuyurlar. Halbuki sadəcə yekun rəqəmləri görmək üçün hesabata nəzər salmaq kifayətdir, elmi mətn oxumaq isə bədii mətn kimi xüsusi yanaşma tələb edir"*. Buradan belə nəticə çıxır ki, oxunun sürəti və texnikası, hər şeydən əvvəl, oxucunun qarşısına qoyduğu məsələ və məqsədlərdən asılı olmalıdır. Məhz əqli fəaliyyətin avtomatizm kimi müvafiq proqramının təkmilləşməsi, lazım olan anda ondan istifadə etmək bacarığı sürətlə oxumaq qabiliyyətini təyin edir.

*Necə reqressiyalarsız oxumaq olar?*

*Qaydalar:* Ən çətin mətni də yalnız bir dəfə oxumaq və gözlərin qayıdışına (reqressiyalara) icazə verməmək lazımdır. Ancaq oxu başa çatdıqdan və mətnin mənası başa düşüldükdən sonra, zəruri olarsa, mətni bir daha oxumaq olar. Bu, oxunuzun əsas qaydası olmalıdır. Mətn nə qədər çətin olursa-olsun, gözləriniz yalnız irəli getməli, heç bir geri qayıdışa yol verilməməlidir. Biz hələ tələsmirik, məqsədimiz düzgün oxumağı öyrənməkdir. Bu yolda ilk addım reqressiyaların tamamilə aradan qaldırılmasıdır.

Məlumdur ki, xeyli mürəkkəb kitablar var ki, onları bir neçə dəfə oxumağa ehtiyac duyulur. Ancaq buna baxmayaraq, hətta bu cür kitabları da birinci dəfə reqressiyalarsız oxumaq lazımdır. Lakin bütün hallarda təkrar oxumazdan əvvəl oxunulan hissənin mənasını başa düşməyə səy göstərmək gərəkdir. Əksər oxucular isə mətnin bir abzasını ya düşünmədən oxuyur, ya da oxu zamanı başqa şeylər haqqında düşündükləri üçün heç nə anlamırlar. Ona görə də yenidən və dəfələrlə

oxuduqları hissəyə qayıdır və mətni sonacan bu cür oxuyurlar. Belə oxu isə səmərəli olmur. Bu zaman həm oxu sürəti ləngiyir (təkrar oxuya 2-3 dəfə çox vaxt sərf olunur), həm də oxuyub anlamanın və yadda saxlamanın keyfiyyəti aşağı düşür.

Məlumdur ki, bütün mətnlər məntiqi ardıcıllığa əsasən qurulur. Belə çoxsaylı geri qayıdışlar isə mətnin məzmununun "karkasını" dağıdır, fikirdə xaos, qarışıqlıq yaradır. Belə ki, oxunulan hissəyə yenidən geri qayıtdıqda dərhal ondan əvvəlki hissə unudulur (əməli yaddaşdan silinir). Bundan əlavə, adətən, oxuya davam etdikdə (başa düşülməsə belə) sonrakı hissədə (məsələn, növbəti sətirlərdə, abzasda, səhifədə) mətnin anlaşılmayan yerləri də aydınlaşır.

2. *Oxunun inteqral alqoritmi*

Təcrübələr göstərir ki, çox sadə bir üsuldan – inteqral alqoritmdən istifadə etməklə oxu sürətini və mənimsəməni iki dəfə artırmaq olar. Mətni oxuyarkən onu bu cür hissələrə ayırmaq tövsiyə edilir:

1. Mətnin adı, müəllifi, çap məlumatları;
2. Problem;
3. Faktlar;
4. Fikri ifadə xüsusiyyətləri;
5. Müəllifə suallar və tənqid;
6. Mətnin yeniliyi və praktik istifadə imkanları

*3. Artikulyasiya*

Dodaqların, dilin və digər tələffüz orqanlarının oxu zamanı hərəkəti özlüyündə oxunun sürətini azaldır. Əslində tələffüz orqanları daim gizli hərəkətdə olurlar. Artikulyatorların bu mikrohərəkətlərinin intensivliyi, hər şeydən əvvəl, oxunun inkişaf səviyyəsindən və mətnin çətinliyindən asılıdır. Məlumdur ki, sözləri tələffüz etmək vərdişi oxucuların əksəriyyətinə xas əlamətdir və oxumağı öyrənərkən formalaşır. Uşaq əvvəlcə sözləri hərf-hərf, sonra heca-heca, nəhayət, bütöv şəkildə səsləndirir. Nəticədə, görünən və tələffüz olunan söz arasında möhkəm reflektor əlaqə yaranır. Beləliklə, mətni əvvəlcə ucadan, sonra pıçıltı ilə, sonra isə "ürəyində oxumaq" vərdişi formalaşır.

*4. Dar görüş sahəsi*

Görüş sahəsi dedikdə, mətnə bir dəfə nəzər yetirməklə gözlərin qavradığı hissə başa düşülür. Ənənəvi oxuda görüş sahəsi çox dar olur. Hərf, söz, ən yaxşı halda isə iki-üç söz qavranılır. Görüş sahəsi nə qədər genişdirsə, gözün hər dayanmasında bir o qədər çox informasiya qavranılır və bu cür dayanmaların sayı azaldıqca isə oxu sürəti artır. Sürətli oxumağı bacaran adam nəzərini bir dəfə saxlamaqla iki-üç sözü deyil, bütöv bir sətri, cümləni, bəzən isə abzası qavraya bilir.

5. *Diqqətlilik*

Diqqət oxu prosesinin katalizatorudur. Yavaş sürətlə oxuduqda diqqət digər düşüncələrə, kənara yayınır və mətnə maraq azalır. Mətnin əksər hissəsi mexaniki oxunduğu üçün mənası dərk olunmur. Belə oxucu diqqətinin yayındığını hiss edən kimi çox vaxt həmin hissəni yenidən oxumağa məcbur olur.

## 2. Oxu modelləri

Çox vaxt soruşurlar: "Sürətli oxu bacarığına sahib insan hər şeyimi sürətlə oxuyur?" Əlbəttə ki, xeyr. Sürətli oxunun fiziki tətbiq hüdudları var. Hər dəfə oxuya başlamazdan əvvəl məqsədlərə, vəzifələrə və vaxta uyğun rejim seçmək lazımdır. Sürətli oxuya yiyələnmənin əhəmiyyəti ondan ibarətdir ki, bu zaman biz informasiyanın böyük hissəsini qısa müddətdə əldə edirik.

**Səsli oxu**

*Məqsəd* şagirdə mətndəki sözlərin düzgün tələffüz qaydasını və həmin sözlərin hansı mənada işləndiyini öyrətməkdir. Səsli oxu şagirdlərin oxu səviyyəsini müəyyənləşdirməklə yanaşı, onların nitq bacarıqlarını da inkişaf etdirir. Eyni zamanda dinləyənlərin zehni inkişafına da kömək edir, onlarda mövzuya maraq yaradır və oxumağa həvəsləndirir.

Səsli oxu dərsini müxtəlif üsullarla keçmək olar. Bu üsullardan bir neçəsinə nəzər salaq:

*Birinci üsul:* Əvvəlcə müəllim səlis və aydın, hamının eşidəcəyi səs tonu ilə mətni oxuyur. Daha sonra məzmunu qavrama səviyyəsini öyrənmək üçün şagirdlərə sual və tapşırıqlar verir.

*İkinci üsul:* Müəllim şagirdləri qruplara ayırır və hər qrupdan bir şagirdə mətnin müəyyən hissəsini səsli oxumağı tapşırır.

*Üçüncü üsul:* Sinifdəki bütün şagirdlər mətni növbə ilə səsli oxuyur və suallara cavab verirlər.

Səsli oxunun ən əsas şərtləri sözlərin düzgün tələffüzünə fikir vermək, şagirddə oxumağa həvəs yaratmaq və onun başqası ilə danışırmış kimi, normal tempdə oxumağını təmin etməkdir. Səsli oxuda sürətli oxumaqdan daha çox intonasiyalı oxumaq vacibdir. İntonasiya isə mətndə təsvir olunan hiss və həyəcana, düşüncələrə əsasən müəyyən edilməlidir. Mətn diqqətlə dinlənilməli, oxuyarkən tələskənliyə yol verilməməli, düzəliş və qeydlər oxu bitdikdən sonra aparılmalı, ehtiyac yoxdursa, oxunulmuş hissə yenidən oxunmamalıdır.

**Səssiz oxu**

*Məqsəd* şagirdlərə səlis və sürətli oxumağı öyrətməkdir. Səsli və səssiz oxu arasındakı ən əsas fərq odur ki, səsli oxu özündə təkcə anlamağı deyil, anlatmağı da ehtiva edir. Səssiz oxu sinifdə hər gün və yaxud həftədə bir dəfə tətbiq edilə bilər. Bu zaman şagirdlər hər hansı bir mətni və ya özləri seçdikləri əsəri müəllimin verdiyi vaxt ərzində oxuyurlar. Burada müəllim özü də oxuya qoşulmaqla şagirdlərə nümunə olmalıdır. Səssiz oxu zamanı müəllim həm də şagirdlərin başqalarına mane olmamağına, bir-birinin diqqətini yayındırmamağına fikir verməlidir. Oxu bitdikdən sonra ümumi şəkildə və ya şagirdləri qruplara bölərək mətnlə bağlı müzakirələr keçirilir. Müzakirə zamanı şagirdlərə *"Nə üçün bu mətni (əsəri) seçdiniz?", "Əsərdə (mətndə) sizi maraqlandıran məqamlar hansılardır?", "Bu əsəri (mətni) yoldaşlarınıza nəyə görə tövsiyə edərdiniz?"* və s. kimi suallar verərək onların mətnlə (əsərlə) bağlı fikirlərini öyrənmək olar. Şagirdlər mətndə (əsərdə) onları maraqlandıran məqamları, başa düşmədikləri hissələri, mətni (əsəri) oxuyarkən hiss etdiklərini yazılı və ya şifahi şəkildə bildirə bilərlər.

*Sürətli oxu üçün göz gimnastikası*

Hər gün oxuduğunuz bir qəzeti götürün və oradan kiçikhəcmli bir mətn seçin. Əvvəlcə həmin mətnin ilk cümləsinin baş hərfi ilə son cümləsinin axırıncı hərfini

müəyyən edin. Sonra həmin ilk və son hərflərə baxın və baxış sürətinizi getdikcə artırın.

Bu proses ilk dəfə sizin üçün çox yorucu ola bilər. Lakin bunu davamlı və ardıcıl etsəniz, oxuma texnikanızda gözlərinizin rolunu (oxu sürətinizi) artıra bilərsiniz.

***Panoram sürətli oxu*** sürətli oxunun daha da təkmilləşdirilmiş formasıdır. Stereo cədvəllərlə xüsusi məşq texnikasından istifadə edərək şagirdin görmə sahəsi əsaslı şəkildə artırılır. Bununla "fuziya divergensiyası" adlı bir effekt, yəni gözün görmə oxlarının ayrılması prosesi baş verir. Beləliklə də, oxunun sürəti və mənimsənilmə keyfiyyəti artır.

Sürətli oxu mükəmməlləşdikcə qismən dərinləşdirilmiş oxuya keçmək olar.

***Dərinləşdirilmiş oxuda*** bütün təfərrüatlara diqqət yetirilir, onlar təhlil edilir və qiymətləndirilir. Bəzi pedaqoqlar dərinləşdirilmiş oxunu *analitik, tənqidi və yaradıcı* hesab edirlər. Bu üsul tədris fənlərinin öyrənilməsində ən yaxşı üsul hesab olunur. Dərinləşdirilmiş oxu zamanı siz təkcə mətni oxumur və başa düşmədiyiniz yerləri aydınlaşdırmırsınız, həm də öz bilik və təcrübələriniz əsasında məsələni tənqidi şəkildə nəzərdən keçirir, verilən izahlarda güclü və zəif məqamları tapır, fikir və qənaətləri müstəqil şərh edirsiniz. Bu da oxunmuş materialı asanlıqla yadda saxlamaq imkanı verir və məşğələlərdə fəallığı yüksəldir. Bu üsulla tanış olmayan mətnləri, mürəkkəb dərslik mövzularını oxumaq asanlaşır.

***Seçmə oxu*** soyadı, sözləri, faktları və s. tapmaq üçün mətni cəld şəkildə nəzərdən keçirməkdir. Təcrübə göstərir ki, sürətli oxu vərdişinə sahib insan bu axtarışı ənənəvi qaydada oxuyandan iki-üç dəfə daha tez edir. O, görmə aparatını, xüsusilə də periferik görməni məşq və inkişaf etdirdiyi üçün mətn səhifəsinə bir anlıq nəzər yetirir və lazımi məlumatları görə bilir.

***Qeyri-ardıcıl (ordan-burdan) oxu*** sürətli oxunun elə bir növüdür ki, bu zaman mətnin ayrı-ayrı fəsilləri ardıcıl deyil, müxtəlif hissələrdən, pərakəndə oxunur. Oxucu sanki hər şeyi görür, heç bir yazını ötürmür, lakin diqqətini yalnız mətnin ona lazım olan hissələrində cəmləşdirir. Qeyri-ardıcıl oxu metodundan çox vaxt kitabı bir dəfə nəzərdən keçirdikdən sonra, ikinci dəfə oxuyarkən istifadə olunur. Bu cür oxunun sürəti sürətli oxudan artıq olur, çünki kitabın səhifələri sadəcə lazım olan fəsil axtarılıb

tapılana kimi vərəqlənir. Qeyri-ardıcıl oxu dərinləşdirilmiş oxudur.

***Nəzərdən keçirərək oxu*** üsulundan kitabla ilkin tanışlıq üçün istifadə edilir. Bu, oxunun vacib üsullarındandır. Məşhur rus kitab həvəskarı N.A.Rubakinin mükəmməl oxu texnikası bu cür təsvir olunur: "O, insanı təəccübləndirəcək dərəcədə sürətlə oxuyurdu, daha doğrusu, kitaba bir neçə dəqiqədə nəzər salaraq onu qiymətləndirməyi bacarırdı. Kitabı götürürdü, ön sözə göz gəzdirirdi, mündəricatda müəllifin mövqeyini bildirən əsas fikirləri axtarırdı və nəticədə, kitabın məzmununu qiymətləndirirdi".

Oxu üsulları bizə təbii və sadə görünən oxu prosesinin əslində nə qədər mürəkkəb və müxtəlif olduğunu göstərir. Bu üsullara yiyələnmək isə sürətli oxu vərdişi qədər vacib məsələdir.

***Qeydlər aparmaqla oxu***

*Məqsəd* şagirdlərin oxu prosesində fəallığını artırmaq, vacib məlumatları, fikir və hadisələri yadda saxlamağına şərait yaratmaqdır. Səsli və səssiz oxu zamanı şagirdlərdən oxunun məzmunu ilə bağlı qeydlər aparmaq tələb olunur. Bunun üçün şagirdlərə müxtəlif tapşırıqlar verilir. Səsli oxuya başlamazdan əvvəl mətnin növü və mövzusu haqqında məlumat verilir, qeydlər apararkən diqqət ediləcək məqamlara toxunulur. Müəllim şagirdlərin diqqətini həmin istiqamətə yönəltmək üçün əsas cümlələri və ya hissələri ikinci dəfə oxuyur. Şagirdlər iş vərəqlərinə oxuduqları mətndə əhəmiyyətli hesab etdikləri məqamları qeyd edirlər. Oxu bitdikdən sonra şagirdlərin qeydləri dəyərləndirilir.

***İşarələyərək oxu***

*Məqsəd* şagirdlərə mövzunu anlamağa kömək edən açar sözləri müəyyənləşdirməyi və əsas hissələri ayırd etməyi öyrətməkdir. "Qeydlər aparmaqla oxu" üsulundan fərqli olaraq bu üsulda şagirdlər əsas hissələri mətn üzərində işarələyirlər. Sonra isə seçdikləri həmin hissələri öz cümlələri ilə ifadə edərək yeni bir mətn hazırlayırlar. Beləliklə də, onlar həm də mətnin əsas ideyasını anlayırlar.

***Təxmin edərək (proqnozlarla) oxu***

*Məqsəd* şagirdləri oxu prosesində daha da fəallaşdırmaq üçün müxtəlif yollarla onlarda mətnə qarşı maraq yaratmaqdır. Proqnozlarla oxu bir neçə yolla həyata keçirilir.

1. Əvvəlcə şagirdlər mətnin müəyyən hissəsini oxuyurlar. Müəllim şagirdlərə "Mətndə baş verən və baş verə biləcək hadisələri" iki ayrı sütunda yazmağı tapşırır. Sonra mətnin davamını oxuyur və şagirdlər mətndəki hadisələrin necə nəticələndiyini başqa bir sütunda yazırlar.

2. Müəllim əvvəlcə mətnin bir hissəsini səsli oxuyur və mətnlə bağlı şagirdləri maraqlandıran ifadə və sualları lövhəyə yazır. Sonra isə mətnin davamı oxunulur və sualların cavabı mətndə tapıldıqca onların üstündən xətt çəkilir.

3. Müəllim şagirdlərə mətni oxumağa başlamazdan əvvəl mətnin başlığından, illüstrasiyalardan və s. istifadə edərək məzmunla bağlı fərziyyələr irəli sürməyi tapşırır.

Səsli oxu zamanı oxunu dayandırıb, "*Sizcə, ardı necə ola bilər?", "Mətnin davamında hadisələrin düşündüyünüz kimi baş verməsinin səbəbi nədir?"* tipli suallar verməklə şagirdləri mətn üzərində düşünməyə istiqamətləndirmək olar.

***Sual verməklə oxu***

Müəllim şagirdlərə oxudan əvvəl və oxu zamanı mətnin məzmunu ilə bağlı suallar hazırlamağı tapşırır. Məqsəd onları mətn üzərində düşünməyə təşviq etməkdir. Bu metod iki formada hayata keçirilir:

1. Səsli və ya səssiz oxudan sonra şagirdlər mətni oxuyarkən onlarda yaranan sualları yazır, sonra isə qruplara bölünərək həmin suallara cavab axtarırlar. Hər qrupdan (sinifdən) bir şagird yoldaşına sual verir.

2. Şagirdlər oxuya başlamazdan əvvəl mətnin başlığını və oxu zamanı yaranan sualları lövhəyə yazırlar. Sonra isə cavabları artıq mətndə tapılan sualların üstündən xətt çəkirlər.

***Tənqidi oxu***

Məqsəd şagirdləri suallarla mövzu üzərində düşündürmək, oxuduqları mətnin müsbət və mənfi tərəflərini dəyərləndirərək öz fikirlərini bildirməyə şərait yaratmaqdır. Onlar həm də mətndə təsvir olunan hiss, düşüncə və hadisələr arasında səbəb-nəticə əlaqəsi qurmağa çalışır, öz təcrübələri əsasında oxuduqlarını mənalandırırlar.

***Xorla oxu***

*Məqsəd* şagirdlərin oxu və əməkdaşlıq bacarıqlarını inkişaf etdirməkdir. Bu zaman

şagirdlər şeiri və ya nəsr əsərini hissələrə ayıraraq xorla oxuyurlar.

Şagirdlər qruplara ayrılırlar və müəllim əvvəlcə mətni oxuyub izah edir. Sonra isə şagirdlər mətni xorla oxuyurlar. Xorla oxu üç formada təşkil oluna bilər:

l. Bütün siniflə: bu zaman mətni bütün sinif oxuyur.

2. Qruplarla: mətn hissələrə ayrılır və hər qrup bir hissəsini oxuyur.

3. Qarşılıqlı oxu: şagirdlər iki qrupa ayrılır, mətnin müəyyən hissəsini bir qrup, digər hissəsini isə ikinci qrup oxuyur.

***Müzakirəli oxu***

*Məqsəd* şagirdlərin mətnin mövzusu ilə bağlı biliklərini, hiss və düşüncələrini başqaları ilə paylaşmağına, qarşılıqlı fikir mübadiləsi aparmağına şərait yaratmaq, bununla da onlarda məsələyə müxtəlif tərəflərindən baxmaq bacarığı qazandırmaqdır. Bu metodda mətni hissə-hissə və ya bütöv şəkildə oxumaq olar və müzakirə bütün siniflə, yaxud qruplarla keçirilə bilər. Müzakirənin sonunda isə ümumi fikirlərdən ibarət mətn tərtib olunur.

Müzakirədə bütün şagirdlərin iştirakını və bir-birlərinin fikrinə hörmətlə yanaşmağını təmin etmək lazımdır.

***Rollu oxu***

*Məqsəd* şagirdlərin mətnin quruluşunu, dilini, obraz və personajların xarakterini anlamağına nail olmaqdır. Şagirdlər mətni oxuduqdan sonra onu dialoq şəklində tərtib edir və teatr ssenarisi hazırlayırlar. Ancaq bir şərtlə ki, mətnin məzmununda heç bir dəyişiklik edilmir, adi danışıq cümlələri və hadisələr əsasında hər bir şagird özü oxuyacağı hissəni hazırlayır. Dialoq tərtib edərkən mətnin şagirdlər tərəfindən qavranılmasına da fikir vermək lazımdır. Yəni şagirdlər mətnin məzmunundan asılı olaraq oxuduqları hissələri izah etməyi bacarmalıdırlar.

***Əzbərləmə***

Məqsəd şagirdlərin yaddaşını gücləndirmək, onlara cümlələrin quruluşunu, lüğət tərkibini, ana dilindən düzgün, səlis və gözəl istifadə etməyi öyrətməkdir. Bu metodda şagirdlər yaş səviyyələrinə, ehtiyac və maraq dairələrinə uyğun mətnləri (şeirləri, nəsr əsərlərini, kəlamları və s.) müəyyən müddət ərzində əzbərləyirlər. Sonra əzbərlənən mətnləri sinifdə və ya sinifdanxaric fəaliyyətlərdə təqdim edirlər. Əzbərləmə üsulu ilə

şagirdlərin söz ehtiyatı, özünəinamı artır, onlarda ana dilindən düzgün istifadə bacarıqları formalaşır.

***Müqayisəli oxu***

Məqsəd müqayisələr aparmağı öyrədərək şagirdlərin təfəkkürünü və bacarıqlarını inkişaf etdirməkdir. Oxudan sonra müəllim şagirdlərdən əvvəl oxuduqları mətnlərlə həmin mətnin oxşar cəhətlərini soruşur, onlara mətnləri məkan, zaman, obraz, mövzu, ideya, hadisə və personajlara görə müqayisə etməyi və onlar arasında əlaqə yaratmağı tapşırır. *"Bu əsərin mövzusu ilə əvvəllər oxuduğunuz əsərin mövzusu arasında nə əlaqə var?", "Bu iki əsərin obraz və personajları arasında hansı oxşarlıqlar var?"* tipli suallarla şagirdlərə istiqamət vermək olar.

### İSOAT - *"İzlə", "Soruş", "Oxu", "Anlat", "Təkrarla"*

1960-cı ildə psixoloq Rohm tədris prosesində apardığı araşdırmalar əsasında oxu sürətinin, qavramanın, yaddasaxlamanın və oxuyub anlamanın keyfiyyətini artırmaq üçün oxu prosesini 5 mərhələdə təşkil etməyi təklif etmişdir.

"İSOAT"ın açılışı belədir: *"İzlə", "Soruş", "Oxu", "Anlat", "Təkrarla".*

1. *İzlə* – mətnin əvvəldən sona qədər nəzərdən keçirilməsi, ilkin baxış mərhələsidir. Burada verilmiş mətni bütöv oxumaq vacib deyil, bu zaman mövzunun adına, hər bir abzasın ilk və son cümləsinə, mətn daxilində xüsusi işarə və formalarla fərqləndirilən söz və ifadələrə diqqət yetirilir.

2. *Soruş.* Bu addımda "izlə" mərhələsində oxunulanlarla bağlı suallar vermək şərtdir. Əgər oxuyarkən suallar yaranmayıbsa, deməli, mövzu kifayət qədər qavranılmayıb. Mövzu başlıqlarına, oxşar və fərqli cəhətlərə nəzər salarkən yaranan sualları imtahan sualları kimi bir vərəqdə qeyd etmək lazımdır. Bu addım cəmi 5-10 dəqiqə vaxt aparır.

3. *Oxu.* Burada "Soruş" mərhələsində yazılan suallara cavab tapmaq və ehtiyac olarsa, onları qeyd etmək lazımdır. Eyni zamanda əsas fikirlərin, xüsusi işarəli söz və ifadələrin diqqəti daim cəlb etməsi üçün həmin hissənin (hissələrin) altından xətt çəkmək, yaxud xüsusi işarələrlə fərqləndirmək lazımdır.

4. *Anlat (İzah et).* Bu mərhələdə "Soruş" mərhələsindəki sualların cavabları başqa bir adama anladılırmış kimi uca səslə izah edilir.

5. *Təkrarla.* Nəzərə alsaq ki, öyrənilən biliklərin təxminən 70 %-i ilk bir saatda unudulur, onda "Anlat" mərhələsində məlumatın yenidən təkrarına ehtiyac yaranır. Məlumdur ki, kifayət qədər öyrənilməmiş məlumatları nəql etmək mümkün deyil. Buna görə də təkrarlar çatışmazlıqları görmək və tamamlamaq üçün faydalıdır.

## 3. Səmərəli oxu üsulları

Ana dili dərslərində oxu zamanı müxtəlif üsullardan istifadə olunur. Seçilən üsulların mətnin xüsusiyyətinə (bədii, elmi, publisistik) uyğun olmasına diqqət etmək vacibdir.

***Mətnlərin müqayisəsi***

Mövzu təqdim edilir və şagirdlərə həmin mövzuda kiçik bir mətn yazmaq tapşırılır. Sonra şagirdlərə yazdıqları mətn ilə dərslikdəki mətnləri müqayisə etmək tapşırığı verilir: Mətnləri oxuyun, hər iki mətnin oxşar və fərqli cəhətlərini seçin. Seçim edərkən aşağıdakı məsələləri nəzərə alın:

- Sizin yazdığınız mətndə verilən məsələlər;
- Dərslikdəki mətndə verilən məsələlər;
- Hər iki mətndə verilən məsələlər;
- Fikirlərinizi daha aydın ifadə etmək üçün Venn diaqramından istifadə edin.
- Öyrəndiklərinizdən nə qənaətə gəldiniz?
- Belə bir mövzuda yenidən mətn yazsaydınız, ona başqa nələr əlavə edərdiniz?

**Venn diaqramı**




***Sinkveyn***

Fransızların yaratdığı, beş sətirdən ibarət şeir janrı olan "Sinkveyn" (fransızca "beş" deməkdir) üsulu *"beş coşğu"*, yaxud *"beş uğur"* mənasını verir. Sinkveyn xüsusi qaydalar əsasında yazılan şeirdir. Həmin qaydalar isə belədir:

1. Birinci sətirdə şeirin həsr olunduğu məfhumun adı verilir və adətən isimlə ifadə olunur.
2. İkinci sətirdə həmin məfhumu təyin edən, sizin onun haqda fikirlərinizi ifadə edən iki söz verilir və adətən sifətlə ifadə olunur.
3. Üçüncü sətirdə məfhumun nə etdiyini, yaxud onunla nə edildiyini göstərən üç söz verilir və adətən feillə ifadə olunur.
4. Dördüncü sətirdə məfhuma münasibətinizi göstərən dörd sözdən ibarət cümlə (cümlə sual və ya xitab formasında da ola bilər) verilir.
5. Beşinci sətirdə isə məfhumla bağlı insanın hiss və assosiasiyalarını təsvir edən bir və ya iki söz verilir. Məsələn:

*Tətil.*

*Nəşəli, unudulmaz.*

*Dincəlirik, əylənirik, sevirik.*

*Hamının sevdiyi xoşbəxt çağlar.*

*Xoşbəxtlik.*

Sinkveyn oxunulan kitab və ya verilən problem haqqında qısa və bədii xülasədir. Bu metod şagirdlərdə ümumiləşdirmə və interpretasiya bacarıqları formalaşdırır. Bu üsuldan istənilən mətnin (bədii, elmi, publisistik) oxusundan sonra istifadə etmək olar.

***Müəllifdən soruş (Müəllif kreslosu)***

Şagirdlərə əvvəlcədən mətni oxuyarkən müəllifə vermək istədikləri suallar (2-3 sual) fikirləşmək tapşırılır (suallar mətnin məzmunu haqqında olmalıdır). Sonra şagirdlərdən biri müəllif rolunu ifa edir və digər şagirdlər suallarını bu "müəllifə" verirlər. Şagirdlərdən bir neçəsi müəllif rolunda çıxış edərək suallara cavab verə bilər.

Bu üsul şagirdlərdə mətni daha diqqətli oxumaq vərdişi formalaşdırır. Çünki diqqətli oxu həm mətnin məzmunu ilə bağlı suallar yaradır, həm də insanı bu suallara cavab axtarmağa təhrik edir. Əsasən elmi və publisistik mətnləri bu üsulla öyrənmək tövsiyə edilir.

Aşağıdakı mətn nümunəsini "Müəllifən soruş" üsulu ilə öyrənməyi sınaqdan keçirin.

**Qlobal istiləşmə**

*BMT-nin iqlimin dəyişməsi üzrə dövlətlərarası ekspert qrupunun verdiyi və "Böyük səkkizlik" ölkələrinin Milli Elmlər Akademiyasının dəstəklədiyi elmi rəyə görə Yer kürəsində havanın orta temperaturu sənaye inqilabının başlanması vaxtı ilə (1850-ci illər) müqayisədə 0,7 dərəcə selsi qalxmışdır.*

*Son 50 ildə müşahidə olunan istiləşmə daha çox insan fəaliyyətinin və ilk növbədə istixana effekti yaradan qaz tullantılarının nəticəsidir. İqlim sahəsində çalışan alimlərin əksəriyyəti bu fikirlə razılaşır.*

*Qlobal istiləşmənin səbəbləri nədir? Elmi dəlillərə görə bu faktorlar arasında vulkan püskürməsi, dünya okeanında gedən proseslər (tayfunlar, fırtınalar və s.), Günəş aktivliyi, Yerin maqnit sahəsi və insan fəaliyyəti vardır. Bunların hər biri qlobal istiləşməyə şərait yaradır.*

*Qlobal istiləşməni sübut edən faktlar hansılardır?*

*a) Temperatur artımı. Bəzi alimlər deyirlər ki, istiləşmə 1976-cı ildən – bəşəriyyətin sənaye fəaliyyətinin sürətli inkişafından sonra kəskin artmış və öz*

*maksimal həddinə 90-cı illərin ikinci yarısında çatmışdır. Ancaq burada yerüstü və peyk müşahidələri arasında fərqlər nəzərə çarpır.*

*b) Dünya okeanının səviyyəsinin qalxması. İstiləşmə və Arktika, Antarktida və Qrenlandiyadakı buzlaqların əriməsi ilə əlaqədar olaraq planetdə suyun səviyyəsi 10-20 sm qalxmışdır.*

*c) Buzlaqların əriməsi. Qlobal istiləşmə, doğrudan da, buzlaqların əriməsinin səbəbidir. Belə ki, 2002-ci ildə Antarktidada yerləşən və ümumi sahəsi 3250 kvadrat km, qalınlığı 200 m olan Larsen şelf buzlağından sahəsi 2500 kvadrat km olan aysberq qopmuşdur. Bu, faktiki olaraq buzlağın dağılması deməkdir. Bütün dağılma prosesi cəmi 35 gün çəkmişdir. Bu vaxtacan buzlaq 10 000 il idi ki (sonuncu buzlaq dövründən bəri), stabil dururdu.*

*Müasir elm üçün ən ağrılı mövzu – istiləşməyə insan fəaliyyətinin təsiri problemidir. Burada fikirlər ayrılır və hansı tənasübdə ayrıldığını demək çətindir. Budur iki bir-birinə zidd mülahizə:*

*d) Karbon qazının atmosferdə konsentrasiyası 1750-ci ildən bu yana 31 % artmışdır. Bu səviyyəyə o, yüz min illər boyu çatmamışdı. Bu, əsas tullantısı elə karbon qazı olan sənayenin inkişafı ilə bağlıdır. Karbon qazı konsentrasiyasının artım qrafiki temperaturun artım qrafikinə uyğun gəlir.*

*e) Dünya okeanının yuxarı səthində atmosferdən 57-60 dəfə çox karbon qazı həll olmuşdur. Bununla müqayisədə insanın təsiri heç nədir.*

*Alimlərin proqnozları necədir? Onların fikrincə, ən çox ehtimal olunan iqlim dəyişiklikləri aşağıdakılardır: daha intensiv yağıntılar, daha yüksək maksimal temperaturlar, Yer kürəsinin hər tərəfində isti günlərin sayının artması və şaxtalı günlərin sayının azalması. Bu zaman kontinental iqlimli ərazilərin böyük əksəriyyətində isti hava axınları daha çox müşahidə olunacaq. Həmçinin küləklərin güclənməsi, tropik siklonların intensivliyinin artması (bu tendensiya hələ XX əsrdə qeydə alınmışdır), güclü yağıntıların çoxalması, sel riskinin və çaylarda daşqının artması, quraqlıq rayonların genişlənməsi, meşə yanğınlarının çoxalması və meşələrin məhsuldarlığının azalması və s. gözlənilir.*

*Bəzi tədqiqatçılar (məsələn, P.Şvars və D.Rendell) belə bir bədbin proqnoz verirlər ki, artıq XXI əsrin birinci rübündə gözlənilməyən istiqamətdə kəskin iqlim sıçrayışı mümkündür. Bunun nəticəsi isə yüz illər davam edəcək yeni buzlaq dövrü ola bilər.*

*S.Popov*

Sonra şagirdlərlə aşağıdakı sualları müzakirə edərək "Müəllifdən soruş" üsulunun səmərəsini müəyyən edə bilərsiniz.

*Müzakirə:*

*- Bu metod mətni daha yaxşı anlamağa kömək etdimi?*
*- Mətnlə iş zamanı bu metoddan istifadə hansı nəticələri verir?*
*- Üzərində işlədiyiniz mətnin hansı xüsusiyyətləri var?*
*- Mətn üzərində bu cür iş ənənəvi oxudan nə ilə fərqlənir?*

***İkihissəli gündəlik***

İkihissəli gündəlik diqqətli oxuya, mətnin ideyasını daha dərindən anlamağa kömək edir və mətnin mövzusunu aktual problemlərlə əlaqələndirir. İkihissəli gündəlik hazırlamaq üçün şagirdlərə bu cür təlimat verilir: Mətndə sizə maraqlı görünən, bəyəndiyiniz və ya bəyənmədiyiniz sitatları (parçaları) seçib yazın. Onları şərh edin. Sitatı şərh edərkən onu necə anladığınızı, nə üçün məhz bu sitatı seçdiyinizi izah edin (ola bilsin ki, bu, sizin həyat təcrübənizə yaxındır, yaxud müəlliflə razı deyilsiniz və ya onun mülahizələrini davam etdirmək istəyirsiniz). Bu sitatın sizdə hansı fikir və assosiasiyalar yaratdığını yazın. Buna uyğun cədvəl tərtib edin və qeydlərinizi orada yazın.

| ***Sitat*** | ***Şərh*** |
|---|---|
| ...................... | Niyə məhz bu sitat yazılıb? O, məni nə haqda düşünməyə vadar edir? |

Bu üsul bədii mətnlərin, xüsusilə şeirlərin təhlili zamanı xüsusilə faydalıdır.

***Nümunə: Nüsrət Kəsəmənli. "Biri vardı, biri yox..."***

| *Sitat* | *Şərh* |
|---|---|
| *Məclislərdə can deyib, can eşidən, Dostlarımın biri vardi, biri yox.* | *Şeirin bu yerində mən də dünyasını vaxtsız dəyişmiş dostumu xatırladım. Amma bəlkə də şairin dostu heç ölməyib, sadəcə ona xəyanət edib. Bu səbəbdən o da şair üçün "ölmüş" kimidir.* |

***Nişanlamaqla oxu (İNSERT)***

Bu üsulla şagird mətndəki informasiyanı saf-çürük edə-edə oxuyur, bir növ mətni "inventarizasiya" edir, mətndə verilən informasiyanı qruplaşdırır. Şagirdlərə mətni aşağıdakı kimi işarələməyi təklif edin:

**"+"** işarəsi ilə sizə artıq məlum olan informasiyanı qeyd edin;

**"-"** işarəsi ilə əvvəlki biliklərinizə zidd olan informasiyanı qeyd edin;

**"!"** işarəsi ilə sizin üçün maraqlı və gözlənilməz olan fikirləri qeyd edin;

**"?"** işarəsi ilə sizin üçün qaranlıq qalan, daha çox öyrənmək istədiyiniz informasiyanı nişanlayın.

Mətn ilə bu cür işlədikdən sonra həmin hissələri aşağıdakı cədvəldəki kimi sistemləşdirmək olar:

| + | **-** | **?** | **!** |
|---|---|---|---|
| Mən bunu bilirdim. | Bu, mənim bildiyimə ziddir. | Mən bu haqda daha çox bilmək istəyirəm. | Bu, mənim üçün yeni məlumatdır. |

Nişanlama ilə oxu elmi və publisistik mətnlərlə iş üçün yararlı üsuldur.

***Bilirəm, İstəyirəm bilim, Öyrəndim (BİBÖ)***

Bü üsul oxu materiallarının dərk edilməsində şagirdləri məqsədli oxucuya çevirmək üçün çox faydalı üsuldur. BİBÖ üsulu informativ mətnlərlə işləmək üçün nəzərdə tutulmuşdur. Onu bədii mətnlərə tətbiq etmək məntiqsizdir.

***Nümunə***

Şagirdlər mətni oxumamışdan əvvəl aşağıdakı cədvəlin I və II sütunlarını

cavablandırırlar. Burada oxucunun aydınlaşdırmaq istədiyi suallar onun *oxu məqsədini* təşkil edir. Mətnlə tanış olduqdan sonra isə III sütuna fikirlər yazılır. II sütunda açıq qalmış suallara cavab tapmaq üçün müvafiq mənbə axtarmaq məsələsi gündəmə gəlir.

| ***I. BİLİRƏM*** | ***II. İSTƏYİRƏM BİLİM*** | ***III. ÖYRƏNDİM*** |
|---|---|---|
| | | |

***Sual verməklə oxu***

Şagirdlərə oxuduğu mətn üzrə suallar tərtib etmək və onları asandan çətinə doğru düzmək tapşırılır. Bu suallar şagirdin oxuduğu mətni nə dərəcədə dərindən anladığını müəyyənləşdirmək imkanı verir.

Sual tərtib etmək üç mərhələdən ibarətdir:

1. Sualların növləri müəyyən edilir;
2. Suallar təsnif olunur;
3. Suallar tərtib olunur.

**Sualların aşağıdakı növləri var:**

*Anlamanı yoxlayan suallar*. "Kim? Nə? Hara? Nə zaman?" sual əvəzlikləri ilə tərtib edilir.

*Şərhlərə istiqamətləndirən suallar:* "Nə nəticəyə gəldiniz? Hansı əlaqələri müəyyən etdiniz? Əvvəlcədən nə baş verəcəyini təxmin edə bilərsinizmi?" kimi suallardan istifadə olunur.

*Dəyərləndirməyə istiqamətləndirən suallar:* Bu haqda nə düşünürsünüz? Bununla bağlı hansı fərziyyələr irəli sürə bilərsiniz? Müəllifə hansı sualı verərdiniz?

Suallar tərtib edilərkən səthidən dərinə doğru sıralanmalı və nəticələri təqdim edərkən fikirlər əsaslandırılmalıdır. Sualların səviyyəsi aşağıdakı göstəricilərə görə təsnif edilir:

- Mətndə dəqiq cavabı olan suallar;

- Cavabı sətiraltı mənada gizlənən suallar;
- Mətnin ideyası əsasında oxucu mühakiməsindən yaranan suallar.

Əvvəlcə suallar tərtib edilir, sonra onlar sadədən mürəkkəbə, səthidən dərinə doğru düzülür. Suallar aşağıdakı kimi təsnif edilir:

***Ən yüksək***

- Dəyərləndirməyə istiqamətləndirən suallar;
- Münasibət bildirən suallar;
- Şərhlərə istiqamətləndirən suallar;
- Məlumatların tətbiqinə yönləndirən suallar;
- Anlama səviyyəsini yoxlayan suallar.

***Ən aşağı***

- Yaddaşı yoxlayan suallar.

***"Ucadan düşün"***

Bu üsuldan istifadə edərkən müəllim bir növ öz "beyninin pəncərəsini" şagirdlər üçün açır və onlara oxu zamanı düşünməyin yollarını göstərir. O, əlaqələndirmə, ümumiləşdirmə aparmaq, nəticə çıxarmaq, dərketməni yoxlamaq və s. fəaliyyətlərin köməyi ilə şagirddə yaxşı oxucu üçün vacib olan bacarıqları formalaşdırır. "Ucadan düşün" üsulunda dərs iki hissəyə ayrılır:

I hissə – mətnin məzmunu üzərində düşünməklə oxunun təşkili;

II hissə – düşünərək oxumaq üçün üsulların öyrədilməsi.

Hər dəfə bu cür oxudan sonra aparılan *"Necə oxuduq ki, başa düşdük?"* fəaliyyəti şagirdlərin oxu strategiyalarını nümunələrlə mənimsəməsinə və beləliklə, müstəqil, düşünən oxucu kimi formalaşmasına şərait yaradır.

"Ucadan düşün" üsulu aşağıdakı fəaliyyətlərdən ibarətdir:

- ilkin bilikləri müəyyənləşdirmək;
- əlaqələndirmək;
- sual vermək;
- məqsədi müəyyənləşdirmək;

- dərketməni yoxlamaq;
- təsəvvür etmək;
- uşaqların münasibətini öyrənmək və dəstəkləyici fikirlər əlavə etmək.

### *Cütlərlə oxu və ümumiləşdirmə*

Cütlərlə oxu və ümumiləşdirmə şagirdlərin mətni yoldaşı ilə birlikdə tədqiq edərək oxumağıdır. Bu cür oxu şagirdlərin mətni daha dərindən başa düşməyinə şərait yaradır. Əməkdaşlığa əsaslanan bütün tapşırıqlarda olduğu kimi, cütlərlə oxu və ümumiləşdirmə də şagirdi həm özünün, həm də yoldaşının öyrənməyi üçün daha çox təşəbbüs göstərməyə sövq edir. Bu üsul təfəkkürü inkişaf etdirir. Cütlərlə oxu və ümumiləşdirmədə təkcə mətni ucadan oxumaq üçün normadan 3-4 dəfə çox vaxt gedir. Buna görə də vaxta qənaət üçün şagirdlərə mətnin yalnız ilk 4-6 abzasını cütlük şəklində, digər hissələri isə tək oxumağı tapşırmaq olar. Bu üsul aşağıdakı ardıcıllıqla həyata keçirilir:

*I addım:* Orta həcmli informativ mətn seçin. Abzasları qısa olan (üç cümlədən çox olmasın) mətnlərə üstünlük verin. Ehtiyac olarsa, mətni özünüz işarələyərək daha qısa hissələrə ayırın.

*II addım:* Şagirdlər bu üsulla ilk dəfə işləyirlərsə, onda əvvəlcə bu üsulun necə tətbiq olunduğunu göstərmək lazımdır.

a. Bir abzası şagirdlərə oxuyun və onun məzmununu ümumiləşdirin. Şagirdlərə izah edin ki, bu, tapşırığın bir hissəsidir. Sonra ümumiləşdirmənin mənasını izah edin: ümumiləşdirmə − mətnin əsas ideyasının mətndən daha qısa şəkildə ifadə (izah) edilməsidir.

b. Şagirdlərə mətnin içərisindən iki sual verin və həmin sualları cavablandırmağı tapşırın. Bu isə tapşırığın ikinci hissəsidir.

*III addım:* Şagirdləri cütlərə bölün. Cütlükdəki şagirdlərdən birinə, sizin etdiyiniz kimi, ilk abzası (ya da işarələnmiş hissəni) oxumağı və ümumiləşdirməyi tapşırın. Cütlükdəki digər şagird isə həmin hissə üzrə 2 sual hazırlamalıdır. Şagirdlərə bunun üçün müəyyən qədər vaxt verin. Bundan sonra şagirdlərdən bəzisi öz ümumiləşdirməsini və sualları siniflə paylaşır. Tapşırığın qaydalarını hamının başa düşdüyünə

əmin olun və ehtiyac olarsa, yenidən izah edin.

*IV addım:* Şagirdlər bu üsulu tam anladıqdan sonra cütlərə abzasları oxumağı, ümumiləşdirməyi və suallar verməyi tapşırın. Onlar hər dəfə abzas bitdikdən sonra rollarını dəyişməlidirlər.

Cütlərlə oxu və ümumiləşdirmə şagirdləri çətin mətnləri daha diqqətlə oxumağa təşviq etməyin yaxşı üsuludur.

**Nə? Nə deməkdir? Nə etməliyik?**

Bu, bədii və ya informativ mətnlərdəki fikirlər üzərində işləmək üsuludur. Şagirdlər çox vaxt məktəbdə əldə etdikləri biliklərin real həyatla uzlaşmadığından şikayət edirlər. "*Nə? Nə deməkdir? Nə etməliyik?*" üsulunun məqsədi isə şagirdlərə məktəbdə öyrəndikləri ideyalarla real həyatdakı fəaliyyətləri arasında qarşılıqlı əlaqəni tapmağa kömək etməkdir. Bu metodun köməyi ilə şagirdlər mətndəki əsas ideyaları tapmağı, onların praktik nəticələri haqqında düşünməyi, eləcə də bu ideyalar əsasında işlər görməyi öyrənirlər. Mövzu şagirdlərə təqdim olunur (oxu və ya mühazirə vasitəsilə) və müzakirə edilir. Deməli, şagirdlərdə mövzu ilə bağlı artıq ümumi təsəvvürlər var. Müəllim qeyd edir ki, mətndən əldə olunan ideyalar əsasında nələr ediləcəyinə sinif qərar verməlidir.

Müəllim lövhədə belə bir cədvəl qurur:

| **Nə?** | **Nə deməkdir?** | **Nə etməliyik?** |
|---|---|---|
| | | |

*Nə?*

Müəllim şagirdlərə tapşırır ki, verilən mövzu ilə bağlı yaranan fikirlərdən ən vacib hesab etdiklərini ümumiləşdirsinlər və "*Nə?*"başlıqlı sütuna yazsınlar.

*Nə deməkdir?*

Müəllim şagirdlərdən həmin fikirlərin niyə vacib olduğunu əsaslandırmağı istəyir: *Onların mənası nədir və bu fikirləri niyə vacib hesab edirsiniz? Bu faktların (fikirlərin) insanların həyatında nə kimi əhəmiyyəti var?* Müzakirədən sonra müəllim

vacib məqamları “*Nə deməkdir?*” sütununa yazır.

*Nə etməliyik?*

Müəllim şagirdlərdən müzakirə etdikləri mövzu və ya problemlərin həlli ilə bağlı planlarını (nələr edəcəklərini) soruşur. Müəllim problemi araşdırmaq, həll yollarını tapmaq üçün onları beyin həmləsinə təşviq edir.

Məsələn, əgər ətraf mühitin çirkləndirilməsi problemi müakirə edilərsə, bunun üçün: *Şagirdlər fərdi şəkildə nə edə bilərlər?*

- Şagirdlər küçələri zibilləməməklə bağlı razılaşma imzalaya bilərlər.

*Şagirdlər qruplar şəklində nə edə bilərlər?*

- Kiçik qruplar öz məktəbləri və məhəllələri üçün insanları küçəyə zibil atmamağa çağıran afişalar hazırlaya bilərlər.

*Bütün sinfin birlikdə edə biləcəyi işlər hansılardır?*

- Şənbə günləri bütün sinif parkda və ya başqa ictimai yerlərdə təmizlik işləri apara bilər.

*Qeyd:* Optimal həll yolları çox vaxt şagirdlərin davranışının müsbət istiqamətdə dəyişməsinə səbəb olur. Ancaq üzə çıxarılan problemlə planlaşdırılan fəaliyyət arasında dəqiq əlaqə yaratmaq üçün vaxtaşırı sinifdə müzakirələr aparmağı tələb edən qrup layihələri həyata keçirmək lazımdır. Şagirdlər cavablandırdıqları sualları və bu araşdırmada verdikləri cavabları, gördüyü işləri, onlar arasındakı əlaqəni unutmasınlar deyə araşdırma bitdikdən sonra “*Nə? Nə deməkdir? Nə etməliyik?*” cədvəlini sinifdən asmaq faydalı olar.

## 4. Oxuya verilən tələblər

Səsli və səssiz oxu aşağıdakı tələblərə cavab verməlidir.

- *Düzgünlük;*
- *Sürət;*
- *Şüurluluq;*
- *İfadəlilik;*

Bu tələblərin hər biri ayrı-ayrılıqda əhəmiyyətlidir və onlar arasında aşağıdakı

qanunauyğunluqlar var:

*1) Oxunun sürəti onun şüurluluğu ilə tənzimlənmirsə, öz-özlüyündə o qədər də əhəmiyyət daşımır.*

*2) Oxunun düzgünlüyü mətnin məzmununun dərk edilərək oxunmasına xidmət edən bir vasitədir.*

*3) Oxunun ifadəliliyi də əsərin ideyasının, ondakı başlıca fikrin obrazlı, canlı, nəticə etibarı ilə şüurlu mənimsənilməsinə xidmət edir. Düzgünlük, şüurluluq, sürətlilik ifadəli oxu üçün əsas şərt hesab olunur.*

Oxu prosesində normal sürət, rəvanlıq, səlislik, düzgünlük olmasa, ayrı-ayrı sözlərin mənası başa düşülsə də, hissələr, fikirlər arasında əlaqə qırılar, mətn rabitəli qavranılmaz.

### *4.1. Düzgün oxu*

*Oxunun düzgünlüyü dedikdə* aşağıdakılar nəzərdə tutulur:

1) sözlərin aydın, səlis tələffüzü − yəni onları təhrif etmədən, heca və səsləri buraxmadan, əlavə etmədən, yerini dəyişmədən oxumaq;

2) sözlərin vurğusunu düzgün işlətmək və vurğusuna görə sözün mənasının dəyişməsinə yol verməmək;

3) ədəbi tələffüz qaydalarına (orfoepik qaydalara) riayət etmək;

4) mətni sözlərlə deyil, rabitəli şəkildə, yəni cümlələrlə, yalnız cüməllələrin sonunda fasilə verməklə oxumaq;

5) mətndə durğu işarələrinin tələblərinə əməl etmək;

6) sözü qrammatik cəhətdən dəyişməmək, başqa bir sözlə əvəz etməmək;

7) cümləni söz buraxmadan və ya yeni söz əlavə etmədən oxumaq;

8) sözləri və cümlələri təkrarlamadan oxumaq;

9) kəkələmə, tıntınlıq, pəltəklik kimi nitq qüsurlarına yol verməmək.

Oxunun düzgünlüyünün pozulması hallarına aşağı siniflərdə daha çox rast gəlinir. Yaxşı oxuyan şagirdlər də bəzən yorulduqda diqqətləri yayınır və səhvlərə yol verirlər. Bunun əsas səbəbi oxunan sözlərin düzgün qavranılmamasıdır. Bu halda şagird ya həmin sözün aid olduğu cümlənin mənasına əsaslanır, ya da o sözü mətndən kənarda dərk edir. Oxumağa yeni başlayan şagirdlər sözü adətən daxil olduğu mətndən (cümlədən) kənarda dərk edirlər.

Şagirdlər bəzən sözdəki hecaların və ya hərflərin sayını azaldaraq, bəzən isə hecalarla oxuyurlar. Düzgün oxu bacarığı formalaşdırmağın əsas şərtlərindən biri də ***oxunun sürətini*** tənzimləməkdir.

Mətndəki çətin sözləri əvvəlcədən yazı taxtasına yazıb, təhlil etmək uşaqları düzgün oxuya hazırlayır. Çətin sözləri hecalara bölüb xorla oxumaq isə oxu texnikasına yiyələnməni sürətləndirir. Oxunmuş mətni şagirdlərə yenidən oxutmaq "oxu sahəsini" genişləndirir. Təkrar oxu zamanı şagirdlərin marağı azalmasın deyə hər dəfə yeni tapşırıq vermək lazımdır.

Müəllim daim şagirdlərin oxusuna nəzarət etməli, səhvlərə vaxtında düzəliş etməlidir. Oxunun düzgünlüyünə nəzarətə şagirdlərin özləri də cəlb olunmalıdırlar.

Oxunun düzgünlüyü artikulyasiyanın dəqiqliyindən asılıdır.

Oxu zamanı müəllim sözlərin yazıldığı kimi oxunmasına yol verməməli, sözlərin düzgün tələffüzünü təmin etmək üçün şagirdləri orfoepik qaydalarla tanış etməlidir.

Oxunun düzgünlüyünün pozulmasına danışıq üzvlərinin qüsurlu olması da səbəb ola bilər. Məsələn, "z", "r", "s", "ş" hərflərini düzgün tələffüz edə bilməmək və s.

Nitqində qüsur olan bu cür şagirdləri müəllim daim nəzarətdə saxlamalıdır. Onlara fərdi yanaşmaq, loqopeddən kömək istəmək və evdə müstəqil işlətmək lazımdır.

### *4.2. Sürətli oxu*

"Literaturnaya qazeta" qəzetinın qeydlərindən birində yazılmışdı: *"Dəqiqədə beş min işarə - mühəndis Bloxinin oxu sürəti belədir"*. Bloxin öz metodunun məğzini izah edərkən belə demişdi: *"Mən heç vaxt oxuduqlarım üzərində düşünmürəm"*.

İnsanlar əsrlərdir ki, oxuyurlar, lakin oxunun sürəti yalnız indi kəskin şəkildə artıb. Səbəb nədir? Bu suala cavab vermək üçün elmi və kütləvi kommunikasiya proseslərində, daha doğrusu, çap informasiyasının formalaşdırılması və ötürülməsi proseslərində baş vermiş dəyişikliklərə nəzər salmaq lazımdır. Çox vaxt tərkibində yeni biliklər olmayan böyük məlumatlar dövr edir. Tarixə nəzər salsaq, keçmişdə də oxşar faktların olduğunu görərik. Məsələn, qədim misirlilər papiruslarda rəqəmlər vasitəsilə üçbucaqların xüsusiyyətləri və əməliyyatların yerinə yetirilməsi qaydalarına

aid o qədər qeydlər ediblər ki, bu materialların mənimsənilməsi onların müasirləri üçün qeyri-mümkün olub.

***Sürətli oxu*** mətnin tam və keyfiyyətli mənimsənilməsini təmin edən və qeyri-ənənəvi metodlarla yerinə yetirilən oxudur. O, fəal, yaradıcı idrak prosesidir. Bu prosesdə oxucu faktları, hökmləri təhlil edir, müqayisələr aparır və nəticədə yeni biliyin təməli qoyulur. Nə qədər paradoksal olsa da, çox vaxt sürətli oxuda mətn asta oxudan daha yaxşı mənimsənilir.

Məşhur Sovet psixoloqu L.S.Vıqotski hələ 1931-ci ildə yazırdı: ***"İnsanlar, adətən, elə hesab edirlər ki, asta oxuyarkən anlama daha yüksək olur. Əslində isə sürətli oxuda anlama daha yaxşı olur. Sürətli oxuda proseslər sürətlə baş verdiyi üçün anlama sürəti də həmin tempə uyğunlaşır".***

Sürətli oxu texnikasının mənimsənilməsində vərdiş olduqca əhəmiyyətlidir. İnsan hələ uşaqlıqdan özündə müxtəlif vərdişlər formalaşdırır: hərəkət edir, velosiped sürür, üzür və s. Bu hərəkətlər ardıcıl baş verdikdə vərdişə çevrilir və ömrü boyu davam edir. Məsələn, üzməyi bacarırsınızsa, istənilən situasiyada suda boğulmayacaqsınız. Misal üçün, təsadüfən suya düşsəniz və ya dostlarınız sizi körpüdən itələsələr belə (hətta geyimli şəkildə olsanız da), üzməyi bacarmayan insanlardan fərqli olaraq boğulmayacaqsınız. Buna bənzər hadisə sürətli oxu vərdişinə sahib insanlarda da baş verir. Bu metodla siz həmişə sürətlə oxuyacaq, informasiya okeanının üzərində qalacaq və bu okeanın sizi batırmasına imkan verməyəcəksiniz. Bununla yanaşı, sürətli oxumaqla siz oxu sürətinin əsirinə çevrilmirsiniz. Belə ki, oxunun sürəti hər dəfə mətnin növünə və məqsədinə görə tənzimlənir.

Oxu sürətini Cədvəl 1-də verilmiş sürət şkalası əsasında müəyyənləşdirmək olar. Sürətli oxu kursu oxu sürətini əvvəlki sürətlə müqayisədə 3 dəfə artırmağa imkan verir; beləliklə, şagirdlər dəqiqədə 3000 və daha çox işarə (3000 işarə – təxminən 500 sözdür) oxumağı bacarırlar. Bu sürət bir saata orta hesabla 100-ə yaxın kitab səhifəsini oxumağa imkan verir.

Cədvəl 1. Oxu sürətinin normativləri

| Oxunun sürəti | 1 dəqiqədə oxunan səslərin sayı |
|---|---|
| Çox ləng | 900 |
| Ləng | 1200 |
| Orta | 1500 |
| Ortadan yuxarı | 1800 |
| Sürətli | 3000 |
| Çox sürətli | 5000 |
| Fövqəlsürətli | 10000 və daha artıq |

### *4.3. Şüurlu oxu*

Oxu təliminin ən mühüm keyfiyyətlərindən biri oxunun şüurluluğudur. Şagirdlərdə şüurlu oxu ibtidai siniflərdən başlayaraq formalaşdırılmasa, onlar məktəb illərində, bəlkə də həyatı boyu oxuduqlarının mahiyyətini dərk edə bilməz.

Şüurluluq dedikdə, hər bir sözün, söz birləşməsinin, cümlənin və bütövlükdə mətnin mənasının başa düşülməsi nəzərdə tutulur. Oxunun şüurluluğu mətnin məzmununun şagirdlər tərəfindən mənimsənilməsini tələb edir.

Oxu prosesində vəziyyətdən asılı olaraq müxtəlif çətinliklər yaranır. Şifahi nitq uşağa tanış olan bir situasiyada baş verdiyi üçün aydın başa düşülür, ancaq mətndə isə yazılı işarələrlə hələ uşağın öyrəşmədiyi məsələlərdən bəhs olunur. Mətnə aid şəkillər bu çətinliyi aradan qaldırır.

Şüurlu oxu təlimi nəticəsində şagirdlər aşağıdakı bacarıqlara yiyələnməlidirlər:

1) Mətni, mətndəki faktları, hadisələrin məzmununu başa düşmək;
2) Mətnin məzmunu əsasında ideyasını izah etmək;
3) Hadisələrin və faktların təsvirində iştirak edən şəxsin davranış motivlərini, münasibətlərinin niyyətini görmək;
4) Əsərin ideyasını başa düşmək;

5) Mətnin məzmununu anlamaq, onu qiymətləndirmək və ona öz münasibətini bildirmək;

6) Yazılı nitqin ifadəliliyini (durğu işarələrini) başa düşmək;

7) Müəllifin ustalığını, əsərin ideyasını, başlıca mənasını, qəhrəmanın fikirlərini və s. başa düşmək və qiymətləndirmək;

8) Mətnin əsasında duran həyat həqiqətlərini anlamaq və qiymətləndirmək.

Şagirdlərdə bu bacarıqları formalaşdırmaq üçün müəllimə aşağıdakı məşğələləri təşkil etmək tövsiyə olunur:

1) Məzmunun qavranılmasına şagirdləri hazırlamaq;
2) Məzmunun qavranılma səviyyəsini yoxlamaq;
3) Lüğət üzrə iş aparmaq;
4) Əsərin planını tərtib etmək;
5) Məzmununu nağıl etmək;
6) Nəticə çıxarmaq;
7) Məzmunu əlaqələndirmək.

## 5. Bədii və informativ mətnlərin oxusu

Əsərlər janr etibarilə müxtəlifdir. İbtidai siniflərdə oxu təlimi zamanı müxtəlif növ mətnlərdən istifadə edilir:

1. Bədii mətnlər (hekayə, təmsil, nağıl, şeir);
2. İnformativ (məlumatlandırıcı) mətnlər (müxtəlif sahələr haqqında məlumat verən mətnlər).

### *Bədii mətnlərin oxusu*

### *5.1. Hekayənin oxusu*

Hekayədə hadisə müəyyən xətt üzrə ardıcıllıqla izlənilə və yadda saxlanıla bilər. Müəllim çalışmalıdır ki, şagirdlər hadisələrin baş verdiyi şəraiti, qəhrəmanları aydın təsəvvür etsinlər. Şagirdlər hekayədəki şəxslərin, xüsusilə qəhrəmanların xarakterik əlamətlərini, xarici görünüşünü müəyyənləşdirirlər. Hekayə oxunduqdan sonra müəllim şagirdlərə hekayədən qəhrəmana xas xüsusiyyətləri bildirən sözləri seçməyi, ona xasiyyətnamə tərtib etməyi xahiş edə bilər. Lakin müəllim bundan əvvəl şagirdlərə hekayəyə sadə xasiyyətnamə yazmağı öyrətməlidir. Anlama, şərhetmə, dəyərləndirmə sualları hazırlamaqla şagirdlərin hekayəni öyrənməsini dəstəkləmək tövsiyə edilir. ***Nümunə:***

**Kərpiclər**

(Hekayə)

- Salam! Siz mənə bir az pul verə bilərsiniz?

- Nəyə görə mən sizə pul verməliyəm? - deyə qadın soruşdu.

- Çünki mənim bir əlim yoxdu.

- Yaxşı. Siz həyətdən mənim evimə kərpic daşısanız, mən sizə pul verəcəyəm.

- Mən bunu necə edərəm? Axı mənim bir əlim yoxdu!

Qadın kişiyə bunu necə edəcəyini göstərmək üçün bir əlini belinə qoyur və digər əli ilə kərpici götürür və evə gətirir.

Kişi bütün gün boyu evə kərpic daşıyır və günün sonunda qadın onun pulunu ödəyir.

Uzun illər ötür. Günlərin bir günü qadının qapısı döyülür. Qadın qapını açdıqda bahalı geyimdə bir şəxs görür. Həmin şəxsi bir neçə xidmətçi və avtomobillər müşayiət edirdi.

O, qadına xeyli pul uzadır və deyir:

- Buyurun, bu, sizin pullarınızdır!

- Bu nəyin mükafatıdır? - deyə qadın soruşur.

- Bir neçə il əvvəl siz mənə özümə və öz gücümə inam bağışlamışdınız!

Qadın ona baxır və görür ki, kişinin bir əli yoxdur. O, kişinin gözünün içinə baxır və deyir:

- Bu pulları götürün və heç bir əli olmayan insana verin.

1. **Mətnə əsasən qadın haqqında demək olar:**

   A) Xəsisdir.

   B) Ürəyiaçıqdır.

   C) Qəddardır.

   D) Ədalətlidir.

2. **Nə üçün kişi kərpicləri daşımaqdan boyun qaçırır?**

   A) Aclıqdan halsız idi.

B) İş görməyə taqəti yox idi.

C) Ona təcili pul lazım idi.

D) Onun bir əli yox idi.

**3. Qadın tək əlli kərpic daşımaqla nə demək istəyirdi?**

A) Qadınlar güclüdür.

B) Kərpiclər çox yüngüldür.

C) İnsan gərək tənbəl olmasın.

D) Tək əllə də iş görmək olar.

**4. Nə üçün qadın kişiyə pul vermir?**

A) Düşündü ki, bəlkə çıxıb gedər.

B) Qadına köməkçi lazım idi.

C) Qadının pulu yox idi.

D) Ona zəhmətlə pul qazanmağı öyrətmək istəyirdi.

**5. Mətnin son cümləsində qadın nə demək istəyirdi?**

A) Onun pula ehtiyacı yoxdur.

B) Kişinin ona təklif etdiyi pul çox azdır.

C) İstəyirdi ki, kişi də kiməsə yaxşılıq etmiş olsun.

D) Qadın özü pul qazana bilər, amma iki əli olmayan insanın bu pula ehtiyacı daha çoxdur.

**6. Kişidə özünəinamın olmadığını nədən bilmək olar?**

A) Tək əllə iş görə biləcəyinə inanmırdı.

B) Dilənçilik edirdi.

C) Qazandığı pulu qadına gətirmişdi.

D) Qadının yanına xidmətçi və sürücüsü ilə gəlmişdi.

### *5.2. Nağılın oxusu*

Nağıl quruluşca hekayəyə yaxın janrdır. Nağılda da hekayədə olduğu kimi, fabula, ideya, həyata uyğun gəlməyən fantastik hadisələr, əşyalar olur. Adətən nağılda başlanğıc və sonluq şablon olur.

Nağılların oxusunda hadisələr əyləncəli, dramatik, personajlar canlı, kompazisiya parlaq obrazlarla verildiyi üçün şagirdlərin təxəyyülü, obrazlı təfəkkürü inkişaf edir. Eyni zamanda dilin sadəliyi, zənginliyi və obrazlılığı da onların nitqinin inkişafına təsir edir. ***Nümunə:***

**Qiymətli daş**

(Azərbaycan xalq nağılı)

Qiymətli daş tapan bir kişi onu padşahın sarayına apardı ki, əvəzində bəxşiş alsın. Sarayın qapıçısı kişini içəri buraxmadı və dedi:

- Padşah sənə nə versə, onun yarsını mən verərsənmi?

Kişi cavab verdi:

- Yox!

Qapıçı dedi:

- Bu şərti qəbul etməsən, səni içəri buraxan deyiləm.

Kişinin əlacı kəsildi, razı oldu. Qapıçı onu padşahın yanına apardı. Padşah daşı bəyənib dedi:

- Əvəzində sənə nə verim?

Kişi cavab verdi:

- Padşah sağ olsun, əmr et ki, mənə əlli çubuq vursunlar. Başqa heç bir şey lazım deyil.

Padşah təəccübləndi:

- Sənə bəxşiş vermək istəyirəm. Niyə özünü döydürmək istəyirsən?

- Padşah sağ olsun! Qapıçı məni içəri buraxanda sizdən alacağımı yarı bölmək şərtini qoyub. Ona görə, buyur, əlli çubuğun yarısını mənə vursunlar, yarısını da ona. Yoxsa məndən inciyər.

Məsələni anlayan padşah güldü və əmr etdi ki, ona yaxşı bir xələt bağışlasınlar. Qapıçını isə saraydan qovdu.

1. ***Kəndli nə tapmışdı?***
   *A) Çubuq*
   *B) Qiymətli daş*

*C) Qədim yazı*

*D) Kitab nümunəsi*

***2. Kəndli padşahın yanına nə üçün gəlmişdi?***

______________________________________________

______________________________________________

______________________________________________

***3. Qapıçı ona nə şərt qoydu?***

*A) Vəzirlərdən şikayət etmək*

*B) Padşahın verdiyi bəxşişi yarı bölmək*

*C) Padşahın yanında özünü tərif etdirmək*

*D) Xəzinənin yerini padşahdan xəbər almaq*

***4. Nağılda başlıca məna nədir?***

______________________________________________

______________________________________________

______________________________________________

### *5.3. Təmsilin oxusu*

Uşaqları maraqlandıran janrlardan biri də təmsildir. Təmsilin əsasında alleqoriya durur və hadisələr yığcam, fabula dinamik, əxlaqi nəticə ironik şəkildə verilir. Təmsil yazanlar heyvan, quş, həşərat, bitki və ya əşyaların obrazlarında insanların tipik xasiyyətlərinə gülür, öyüd-nəsihət verirlər.

**Cırcırama və qarışqa**

Cırcırama yay, bahar
Nəğmə oxur biqərar!
Hər çiçəyin yarpağı
Olmuş idi oylağı.
Kefə alışmış idi,
Başı qarışmış idi.
Tutdu xəbər bir zaman,
Qış yetişib, ay aman!

Yayı keçirmiş hədər,
Yox daha güldən əsər.
Hər yeri çovğun alıb,
Gül-çiçək, hər yan solub.
Qaldı o biçarə ac,
Susdu daha naəlac.
Qarışqaya o zaman
Yalvarıb dedi: "Aman,
Qonşucuğaz, yazadək
Bəslə məni, ver yemək."
Dedi qarışqa: "Sənin
Yayda nə idi işin?"
"Güllər arasında mən
Eyləmiş idim vətən."
"Neyləyirdin yayda sən?"
"Nəğmə oxurdum da mən."
"Yayda oxurdun, demək,
İndi isə oyna, bəy!"

*İvan Krılov*
*(Tərcümə: Abdulla Şaiq)*

1. **Hansı xüsusiyyət qarışqaya aiddir?**
   A) Lovğalıq
   B) Qayğıkeşlik
   C) Əməksevərlik
   D) Tənbəllik
2. **Hansı atalar sözü təmsilin əsas ideyasına uyğundur?**
   A) Yayda çəkən zəhməti, qışda görər ləzzəti.
   B) Düşmənə əyilməkdənsə, ölmək daha yaxşıdır.
   C) Tək əldən səs çıxmaz.
   D) Artıq tamah baş yarar.
3. **Cırcırama yayı necə keçirdi?**
   ______________________________________________
   ______________________________________________
4. **Qışda cırcırama nə üçün ac qaldı?**
   ______________________________________________
   ______________________________________________
   ______________________________________________
5. **Təmsildə hansı fəsil *qeyd olunmayıb?***

A) Yaz
B) Yay
C) Payız
D) Qış

### *5.4. Şeirlərin oxusu*

Şeirlərin oxusu şagirdlərin hafizəsini möhkəmləndirir, nitqini inkişaf etdirir, dünyagörüşünü artırır və onlarda estetik zövq formalaşdırır. ***Nümunə:***

**Qarabağı verməræm**

*Bütün aləm danışır*
*Mənim səxavətimdən,*
*Qonağa pay verəndə*
*Bahasını verərəm.*
*Dostlara süfrə açıb*
*Öz halal nemətimdən,*
*Evimin ipəyini,*
*Xarasını verərəm.*
*Lazım olsa yolunda*
*Keçib can sərvətimdən,*
*Çıxarıb ürəyimin*
*Parasını verərəm.*
*Kimlər ki, şəfqət tapır*
*Ana təbiətimdən,*
*Dərman kimi dağların*
*Havasını verərəm,*
*Amma dağı verməræm,*
*Mən heç zaman dönmərəm*
*Fikrimdən, niyyətimdən.*
*Lazım gəlsə, gözümün*
*Qarasını verərəm,*
*Qarabağı verməræm!*

*Tofiq Bayram*

1. **Şeirdə xalqımızın səxavəti haqqında nə deyilir?**

______________________________________________________

______________________________________________________

______________________________________________________

2. **Şair nə üçün *“Dağın havasını verərəm, amma dağı verməræm”* deyir? Fikrinizi izah edin.**

__________________________________________________________
__________________________________________________________
__________________________________________________________

**3. Şeirin əsas ideyası nədir?**

__________________________________________________________
__________________________________________________________
__________________________________________________________

## *İnformativ (elmi-kütləvi) mətnlərin oxusu*

Elmi mətnin "süjeti" spesifikdir: burada müəllif oxucunu həqiqət axtarışına cəlb edir. Oxucu müəllifin izi ilə gedərək gözlənilən nəticəyə gəlməlidir. Bu cür mətnin kompozisiyası elmi-tədqiqat işinin mərhələlərinin ardıcıllığını əks etdirir:

1. Problemin (sualın, məsələnin) dərk edilməsi və məqsədin qoyulması – giriş hissə;
2. Problemin həlli yollarının axtarışı, mümkün variantların nəzərdən keçirilməsi və hipotezaların (fərziyyələrin) irəli sürülməsi, ideyanın (hipotezanın) sübut olunması, tədqiqat məsələsinin həlli – əsas hissə;
3. Cavabın alınması və onun yoxlanması – nəticə.

Beləliklə, elmi mətndə fikir faktlarla ifadə olunur. Hətta kiçik həcmli mətnlər (məqalə, məlumat) belə, rubrikalara bölünür, bir tədqiqat epizodundan digərinə keçid vurğulanır. Elmi mətnin əsas janrları *tezis*, *məqalə* və *monoqrafiyadır*. Yeni elmi informasiya əsasən məhz bu janrların vasitəsi ilə yayılır. Başqa janrlar ya informasiyanı qısa şəkildə (referat, annotasiya) verir, ya da onu qiymətləndirir (resenziya, rəy).

***Elmi mətni oxuyarkən aşağıdakı ardıcıllıq gözlənilir:***

*1.* ***Başlığı və birinci abzası oxuyun və qərar verin:*** *bu mətni oxumaq üçün kifayət qədər məlumatınız varmı? Əgər əlavə hazırlığa ehtiyac varsa, digər mənbələrə müraciət edin;*

*2.* ***Əsas fikirlərə nəzər salın, başlıq və yarımbaşlıqları təhlil edin.*** *Əsas fikirləri qeyd edin, mətndəki şəkil, sxem və diaqramları nəzərdən keçirin;*

*3.* ***Terminləri müəyyənləşdirin.*** *Mətndə tanış olmayan sözlərə rast gəlirsinizsə, lüğətə baxın;*

*4.* ***Dərketmənizi yoxlayın.*** *Mətnin oxusunu dayandırıb özünüzə sual verin: "Mən*

*bundan nə anladım?" Mətndən əldə etdiyiniz yeni informasiyanı əvvəlki biliklərinizlə əlaqələndirin.*

*5. Mətnin ideyasını anlamadınızsa,* **onu yenidən oxuyun.** *Mürəkkəb cümlələri (fikirləri) öz sözlərinizlə ifadə edin.*

*6.* ***Mətni axıra kimi oxuyun.*** *Oxuduqca fikirlər sizin üçün daha aydın ola bilər. Oxuyub qurtardıqdan sonra mətni yenidən nəzərdən keçirin, anlamadığınız hissələri bir də oxuyun.*

*7.* ***Oxu zamanı özünüz üçün qeydlər edin.*** *Məsələn, əsas fikirlərin altından xətt çəkin, konspekt hazırlayın, nəticələri yazın – bütün bunlar fikrinizi oxuduğunuz material ətrafında cəmləməyə kömək edəcək.*

***Elmi mətn nümunəsi***

*Əslində Günəşdən aldığı enerjinin miqdarına görə Yer kürəsinin səthində -20 dərəcə selsi şaxta olmalı idi. Məlumdur ki, biz Yer səthində orta hesabla +20 dərəcə selsi hərarətdə yaşayırıq. Bunun səbəbi Yer atmosferində su buxarı, karbon, metan, ozon və s. qazlardan ibarət təbəqənin mövcud olmasıdır. Bu təbəqə Yer atmosferində təxminən 25 kilometrlik yüksəklikdə yerləşir. Məsələ burasındadır ki, həmin atmosfer təbəqəsi Günəşin istilik şüalarını Yerə doğru maneəsiz buraxır, yəni bu istilik şüaları Yer atmosferində udulmadan keçirlər. Qeyd etmək lazımdır ki, həmin şüalar Yer səthindən əks olunub, həmin təbəqəyə çatanda, elə bil ki, möcüzə baş verir. Bu təbəqədə yerləşən həmin qazlar bu şüaları əks etdirərək yenidən Yerə qaytarırlar. Bu proses eynən insanların yerdə yaratdığı süni istixanalarda (parniklərdə) baş verən proseslərə bənzəyir. Bu səbəbdən Yer planetinin səthində hərarət 39 dərəcə selsiyə qədər yüksəlir. Belə tənzimləmə hesabına Yer səthində orta illik hərarət +18-20 dərəcə selsi olur. İstixanalarda da bu cürdür. Əgər bu təbəqə olmasaydı, onda Yerdə -20 dərəcə Selsi şaxta olardı. Yerin də səthi Mars planeti kimi buzla örtülü olardı. Su maye halında deyil, buz halında olardı. Belə olan halda, insanlar üçün Yer səthində yaşamaq mümkün olmazdı. Antarktida buzları altında nəhəng dağ massivləri var və onlar Alp dağlarını xatırladır, forma və quruluşca oxşarlıq böyükdür. Əsas fərq ondan ibarətdir ki, Alp və ya Himalay dağları kontinentlərin toqquşması nəticəsində 50-60 milyon il əvvəl, buzlaqlar altındakı dağlar isə oxşar proseslər nəticəsində 500 milyon il əvvəl yaranıb. Antarktidadakı dağlarda buz təbəqəsi tədricən yaransaydı, dağlar bu formada qalmazdı. Sivri uclu piklərin olması buzlaşmanın qəfil əmələ gəlməsinə səbəb olur.*

*Hesablamalara görə, Antarktida 35 milyon il əvvəl buzla örtülüb. Buradakı buz kütləsinin tamam əriyəcəyi təqdirdə dünya okeanı sularının səviyyəsi 57 m qalxacaq. Antarktida buzlaqları altında maye su var. Üzərində -30 dərəcə şaxta olan buzlaqların 3-4 kilometr dərinliyində dağ vadilərində su axır. Bu gün buz altında ən yaxın torpaq sahəsini müəyyən etməklə buruq quyusu qazmaq və qədim canlı nümunələri tapmaq ehtimalı var.*

××××××

*Yeni doğulmuş siçanların gövdə hüceyrələrini böyük siçanların gözlərinə calamaqla bu hüceyrələrin görmə qabiliyyətini bərpa etmək mümkündür. Aparılmış təcrübələr sübut edir ki, transplantasiya üçün aktiv bölünmə mərhələsi qurtarmış gövdə hüceyrələri daha münasibdir. Kor siçanlara calanmış hüceyrələr onların görmə qabiliyyətini bərpa etmişdir: siçanların göz bəbəkləri işığa reaksiya verməyə başlamışdır. İnsanlar üçün bu cür hüceyrələr çıxarmaq çox çətin olacaq, belə ki, hüceyrələr hamiləliyin 3-6 aylıq müddətində götürülməlidir. Yaxın gələcəkdə lazımi hüceyrələri yaşlı adamların və yeni doğulmuşların gövdə hüceyrələrindən yetişdirmək mümkün olacaq. Təcrübələrdə istifadə olunmuş siçanlar gözün tor qişasındakı sarı ləkənin degenerasiyasından əziyyət çəkirdi. Onlardakı bu xəstəlik genetik xətalara görə əmələ gəlmişdi. Lakin o, geniş yayılmış xəstəlikdir və xüsusən yaşlı adamların görmə qabiliyyətini itirməsinin əsas səbəblərindən biridir. Tədqiqatlar uğurla davam edərsə, insanlarda görmə reseptorlarının calanması üzrə ilk cərrahiyyə əməliyyatları yaxın on il ərzində keçirilə bilər.*

**Publisistik mətn**

Publisistika (latınca *"publicus"* sözündən olub, *"ictimai"* deməkdir) – cəmiyyət həyatının bugünki aktual problemlərinə və hadisələrinə həsr olunmuş mətn növüdür. Bu cür mətnlərdən ictimai-siyasi ədəbiyyatda, dövri mətbuatda (qəzetlər, jurnallar), radio və televiziya verilişlərində, sənədli filmlərdə, afişa və bukletlərdə istifadə olunur.

Kütləvi informasiya vasitələrində (KİV) istifadə olunan publisistik mətnlər informasiya mənbəyi hesab olunur. İnformativ mətnlərin xarakterik cəhətləri aşağıdakılardır:

a) İnformativlik: Publisistik mətnlər informativ xarakterli olur və burada müəllif cəmiyyət üçün aktual bir problemi və bu problemə öz münasibətini daha geniş oxucu, dinləyici və tamaşaçı kütləsinə təqdim edir.

b) Təsiredicilik: Publisistik mətlər müəyyən qədər təsiredici qüvvəyə malik olur. Publisist təkcə cəmiyyətdə baş verənləri qeyd etmir, həm də həmin şeylərə qarşı auditoriyada müəyyən münasibət yaradır və problemlərin həllinin vacibliyini vurğulayır. Qərəzlilik (yəni oxucunu inandırmaq üçün mətnin məzmununu şüurlu şəkildə bu və ya digər ideyaya tabe etmək), mübahisəlilik, emosionallıq (emosional çalarlar, obrazlı sözlər və frazeoloji ifadələr, emosional sözlər, ritorik suallar, nidalar, təkrarlar və s.) bu cür mətnlərə xas xüsusiyyətlərdir.

c) Kommunikativlik: Publisistik mətn geniş auditoriyaya xitab etdiyi üçün kommunikativ funksiya daşıyır.

Publisistik mətndə faktlarla yanaşı, xeyli sayda rəylərə də (müəllifin, hadisə şahidlərinin, rəsmi şəxslərin rəylərinə və s.) yer verilir. Odur ki, belə mətn heç də həmişə obyektiv və doğru məlumat vermir. Publisistikada işıqlandırılan hadisələrin seçimi sosial əhəmiyyətliliyinə və ictimai marağa görə aparılır (dövlət rəhbərlərinin görüşləri, yeni qanunların qəbulu, teatr premyeraları, idman yenilikləri və s.).

Publisistik mətnlər *informativ, analitik* və *bədii-publisist* növlərə bölünür. Odur ki, əgər sizə konkret informasiya lazımdırsa, informativ janrlara (reportaj, müsahibə, hesabat, qeyd), hadisələrin təhlili ilə maraqlanırsınızsa, analitik janrlara (dialoq, analitik məqalə, resenziya, icmal), hadisə və faktlar haqqında bədii, obrazlı şəkildə məlumat almaq istəyirsinizsə, bədii-publisistik janrda yazılmış mətnlərə (oçerk, esse, felyeton, pamflet) müraciət edə bilərsiniz.

***Publisistik mətn nümunəsi***

*Bəşəriyyət möhtəşəm bir kəşfin astanasındadır. Ukraynalı alimlər insanı cavanlaşdırmaq və həyatını qeyri-müəyyən vaxtadək uzatmağın yolunu tapıblar. Bu haqda sensasiyalı xəbər mətbuatda bir-iki həftə öncə yer almışdı. Ancaq bu günlərdə məlum oldu ki, möcüzəli dərmanın formulu üzərində hələ çox işləmək lazımdır. Qocalma əleyhinə konfransda iştirak edən professor Vittorio Kalabreze*

*"Komsomolskaya pravda" qəzetinə verdiyi müsahibəsində demişdir: "Ölməzlik prinsip etibarilə mümkün deyil. Əbədi həyat haqqında nağıllar çoxlarına rahatlıq vermir. Bütün insanların əbədi yaşayacağı təqdirdə planetimizdə nələr olacağını bir təsəvvürünüzə gətirin. Mənə belə gəlir ki, xülyalar arxasınca qaçmaq əvəzinə, ən doğrusu insanların uzunömürlü və sağlam yaşaması istiqamətində işləməkdir. Ukraynalı alimlər doğru yoldadırlar. Onların kəşfləri bizi heyrətləndirir. Bu fikirdəyəm ki, sizin tibb elminin böyük gələcəyi var. Əlbəttə ki, bu işin üstündə bir neçə nəfər mütəxəssis yox, çoxları işləməlidir. Xalq bunun vacibliyini anlamalıdır. Ukraynalı alimlərin indiki sensasiyalı tədqiqatları heç də boş şey deyil. Bir qədər səbir edin..."*

*Natalya Malkina "Komsomolskaya pravda"*

***Praktik iş***

*Mətni cütlər şəklində oxuyun, açar sözləri yazın. Həmin sözlər əsasında "Publisistik mətndən informasiya mənbəyi kimi necə istifadə etmək olar?" başlıqlı qeydlər hazırlayın.*

*Müzakirə:*

*- Bu mətndə hansı açar sözləri qeyd etdiniz?*

*- Publisistikadan informasiya mənbəyi kimi istifadə üçün hansı məsləhətləri hazırladınız? Onların əsasında 4-5 maddədən ibarət ümumi qeydlər hazırlayın.*

*- Bu işin nəticələri sizin üçün əhəmiyyətlidirmi? Siz bu bilik və bacarıqlardan nə zaman və harada istifadə edəcəksiniz?*

***Publisistik mətn nümunəsi***

***Güzdəkdə zoopark yaradılır***

*Bakının mərkəzindəki zoopark yaxın vaxtlarda şəhərin kənarına köçürüləcək. Artıq bunun üçün Qaradağ rayonunun Güzdək qəsəbəsi yaxınlığında 55 hektar sahə ayrılıb. Ekologiya və təbii sərvətlər naziri bu gün keçirdiyi mətbuat konfransında bildirib ki, artıq həmin ərazidə zooloji parkın yaradılması istiqamətində ciddi iş gedir. Belə ki, ərazi nazirliyin elan etdiyi tender nəticəsində seçilmiş hollandiyalı ekspertlər tərəfindən qiymətləndirilib. Qiymətləndirmədən sonra orada zooloji parkın yaradılması məqsədəuyğun sayılıb.*

*Nazir deyib ki, hazırda həmin zooloji parkda yerli mühitə uyğun canlıların və ya xaricdən gətirilən heyvanların saxlanılmasına dair müzakirələr aparılır. Onun sözlərinə görə, kiçik parklarda, istirahət mərkəzlərində saxlanılan heyvanlar da yeni yaradılan parka köçürüləcək. Bundan başqa, yeni zooparkda Azərbaycana məxsus olmayan bəzi heyvanların da saxlanılması nəzərdə tutulur.*

*Şəhərin kənarında ilk zooloji park region ölkələri arasında məhz Azərbaycanda yaradılır.*

*E.Salahov*

## 6. Oxucu növləri

Oxucular bir-birindən fərqli olur. Hovard Gardner (1982) qeyd edir ki, hər bir şagird müəyyən qabilliyyətə malikdir və müəllim həmin qabiliyyətləri aşkar edərək təlimi onlara uyğun təşkil etməlidir. Şagirdlərin bəzisi tədqiqatların nəticələri haqqında yazmağa, digərləri isə şifahi təqdimatlar etməyə üstünlük verirlər. Elələri də var ki, problemlə bağlı şeir yazmaq, mahnı qoşmaq və ya film çəkməyi xoşlayırlar. Təlim zamanı təfəkkürün bütün imkanlarının nəzərə alınması öyrənənlərin müvəffəqiyyəti ilə nəticələnir. İnsanlar müxtəlif olduğu kimi, onların öyrənmə tərzləri, öyrənmənin təşkili və bilikəri nümayiş etdirmə yolları da fərqlidir.

Hər kəs bu haqda düşünə bilər: “Mən necə oxucuyam?”, “Hansı şəraitdə oxumağı sevirəm?”, “Mən necə oxumağa adət etmişəm?”. Bəzilərimiz səssiz oxu zamanı mətndəki söz, fikir və obrazlar haqqında düşünür və ya onları film kimi təsəvvürümüzdə canlandırırıq. Bəzilərimiz isə sürətlə oxuyur, fikirləri cəld müəyyənləşdirərək irəliləyirik. Bu fərqləri nəzərə alsaq, aşağıdakı oxucu növlərini müəyyənləşdirmək olar:

*Kinestetik oxucular* mətni fasilələrlə, emosialarla əlaqələndirərək oxuyurlar və mətni oxuyarkən oxuduqları hissəni barmaqları ilə izləməyi xoşlaylırlar. Həmçinin kinestetik oxucuların digər xüsusiyyəti isə odur ki, onlar oxu zamanı sətiraltı mənalara fikir verir və yapışqanlı qeyd vərəqlərindən istifadə edirlər.

*Vizual intellektli* oxucular oxuduqlarını film kimi yadda saxlaya və ya əvvəlki biliklərindən istifadə edərək onları öz sözləri ilə ifadə edə bilirlər. Bu tip oxucular, həmçinin mətni sxem və ya qrafik şəklində də yadda saxlamağı bacarırlar.

*Audial oxucular,* əsasən, sürətli oxucular hesab olunur və materialları ucadan təkrar-təkrar oxumağı sevirlər. Onlar məlumatları tez anlayır və suallara çevik cavab verirlər.

Bütün bunları bilmək təkcə şagirdləri öyrənmə üslubları haqqında məlumatlandırmaq üçün deyil, həm də müəllimin müxtəlif oxu üslublarından xəbərdar olmağı və sinifdə şagirdləri bu istiqamətdə yönləndirməsi üçün faydalıdır.

## 7. Oxucunun xüsusiyyətləri

Oxunun dərinliklərinə varmaq nöqteyi-nəzərindən oxucuları 4 qrupa ayırmaq olar:

| | |
|---|---|
| I. Mətnlə tanış olan oxucu | Adi oxucu |
| II. Mətndəki mənanı dərk edən oxucu | Məlumatlı oxucu |
| III. Mətndəki ayrı-ayrı məsələləri tətbiq edən (mətndən istifadə edən) oxucu | Strategiya ilə oxuyan oxucu |
| IV. Sətiraltı mənalara tənqidi yanaşan oxucu | Düşünən oxucu |

**I qrup. Mətnlə tanış olan oxucu:**

- Tanış olan sözləri avtomatik oxuyur;
- Tanış sözlər vasitəsilə mətnin mənasını (ideyasını) dərk edir;
- Mənanı simvollarla ifadə edə bilir;
- Mətnin məzmunundan çıxış edərək sözlərin mənasını müəyyənləşdirir;
- Mətnin janrını bilir;
- Mətnləri quruluşca bir-birindən fərqləndirir;
- Hekayənin hissələrini bir-birindən fərqləndirir;
- Mətni nəzərdən keçirir, onun forma və xüsusiyyətlərindən (xəritə, qrafik, illüstrasiya, şəkil) məzmunu anlamaq, dərk etmək və s. məqsədi ilə istifadə edir.

**II qrup. Mətndəki mənanı dərk edən oxucu:**

- Mətndəki yeni sözlərin mənasını öyrənir;
- Oxu məqsədini müəyyən edir;
- Mətni əvvəlki bilikləri ilə əlaqələndirir;

- Oxudan əvvəl, oxu zamanı və oxuduqdan sonra suallar verir;
- Oxudan əvvəlki fərziyyələrinin doğruluğunu oxu zamanı yoxlayır;
- Oxuduqlarını müxtəlif formalarda təsəvvüründə canlandırır;
- Mətnin məzmunundan nəticə çıxarır;
- Öz oxu prosesi üzərində düşünür.

**III qrup. Mətndəki ayrı-ayrı məsələləri tətbiq edən oxucu:**

- Tanış olmayan yeni anlayışları, yeni sözləri öyrənir;
- Müəllifin üslubunu ayırd edə bilir;
- Yazı üslubları haqqında məlumatlıdır;
- Mövzu ilə bağlı şərhləri əsas ideya ilə əlaqələndirir;
- Nəticələr çıxarır və əlavə məlumatlarla onları əsaslandırır;
- Verilən məlumatları ümumiləşdirir;
- Mətni real həyat hadisələri ilə əlaqələndirir;
- Yeni ideyaları daha geniş müstəvidə əlaqələndirir.

**IV qrup. Sətiraltı mənalara tənqidi yanaşan oxucu:**

- Sözlərdən istifadənin səmərəliliyi ilə bağlı fikirlər bildirir;
- Fikirlərini əsaslandırmaqla mətnə öz münasibətini bildirir;
- Müxtəlif mənbələrdən istifadə edərək yeni ideyalar irəli sürür;
- Mətndən əldə etdiyi nəticələri başqa vəziyyətlərdə də istifadə edir;
- Məsələ ilə bağlı fərqli və müxtəlif mövqeləri yoxlamaq üçün öz mövqeyini dəyişir, problemə həmin mövqedən yanaşır;
- Müxtəlif mədəniyyətlərin üstünlük verdiyi məsələləri və maraqları bilir;
- Mətni öz təcrübəsi ilə, digər mətnlərlə və real həyatla əlaqələndirir.

## 8. Oxu zamanı əməkdaşlıq

Təlim prosesi interaktiv fəaliyyətdir və şagirdlər öyrənmək üçün qarşılıqlı fəaliyyətə, əməkdaşlığa ehtiyac duyurlar. Təlimin təşkilində qrupla fəaliyyət əhəmiyyətlidir, çünki təlimdə olduğu kimi, insanlar həyatda da birlikdə işləməyə, əməkdaşlığa ehtiyac duyurlar. Bununla onlar öz öyrənmələri üçün də məsuliyyət

daşımağa başlayırlar. Adətən hər hansı bir məsələni kiməsə öyrədəndən sonra öyrədənin özünə də daha yaxşı aydın olur. Əməkdaşlıq şəraitində çalışan şagirdlər:

- Mövzu ilə bağlı düşünməyin müxtəlif yollarını aşkar edirlər;
- Mürəkkəb tapşırıqlarda bir-birlərinə kömək edirlər;
- Başqa şagirdləri hörmətlə dinləməyi öyrənirlər və həmin fikirlərdən faydalanırlar;
- Öz fikirlərini arqumentlərlə əsaslandırmağı, eləcə də özlərinkindən fərqli fikirləri qəbul etməyi öyrənirlər.

Yaxşı oxucular öyrənmək üçün başqaları ilə əməkdaşlıq edirlər.

## 9. Oxu xətaları

***Ötürmə*** – oxu zamanı səslərin, hecaların ya da sözlərin bir hissəsini, söz birləşmələrini və ya bütöv bir sətri oxumadan keçməkdir. Ötürmənin iki növü var:

1) Tanımadığı və ya anlamadığı sözləri bilərəkdən oxumamaq;

2) Heca, yaxud sözləri görmədən edilən ötürmə.

Nadir hallarda baş verən ötürmələr diqqətsizliklə əlaqədardır, lakin tez-tez sözləri, hecaları, hərfləri ötürərək baş verən oxuma isə səhifə üzərində göz izləməsinin düzgün aparılmadığını göstərir. Bu cür xətaları tez-tez edən uşaqların mətni barmağı ilə izləyərək oxuması faydalıdır.

***Əlavə etmə*** – *oxuyarkən* mətndə olmayan səsin, hecanın, sözün mətnə əlavə edilməsidir. Əlavələr oxunan cümləyə başqa məna verdiyi və cümlənin mənasını dəyişdirdiyi üçün oxu xətası hesab olunur. Əgər bu cür əlavələr az olursa, ciddi bir fərq yaratmır. Ancaq bu hal tez-tez təkrarlanırsa, deməli, şagirddə diqqətsizlik, diqqətin yayınması problemi var.

***Təkrarlama*** – bir sözü və ya cümləni ikinci dəfə oxumaqdır. Bu, “reqressiya” da adlanır. Söz şagirdə tanış olduğu halda belə, inamsız olduğu üçün sözü yenidən oxuyur. Bu hal oxu sürətini azaltmaqla yanaşı, oxuyub anlamanın keyfiyyətini də aşağı salır. Şagirdin özünəinamı artdıqca oxu tərəddüdlərində, təkrarlamalarda da azalma müşahidə edilir.

Oxumağa təzə başlayanlarda bu cür reqressiyalar tez-tez baş verir. Uşaqlar sözdə eyni hecanı, cümlədə eyni sözü bir neçə dəfə təkrarlamalı olurlar. Onlar sözləri hecalarla, fasilələrlə oxuduqları üçün mətnin axırına çatanda əvvəli yaddan çıxır. Ona görə də geriyə qayıdırlar ki, həmin hissələri bir-biri ilə əlaqələndirə bilsinlər. Sözlər nə qədər böyük, çoxhecalı və mənaca çətin olarsa, geriyə qayıtma, təkrarlama da bir o qədər çox olur. Şagirdlər təkrara ona görə meyllidirlər ki, bu, onları cümlədə birləşdirməyə və mənanı başa düşməyə kömək edir. Ona görə də oxuya yeni başlayanlar üçün belə geriyə qayıtmanı nöqsan hesab etmək düzgün deyil.

***Tərsinə oxuma*** – hərflərin, hecaların, sözlərin yerini dəyişdirərək və ya geriyə çevirərək oxumadır. Bu problemə daha çox birinci sinif şagirdlərində rast gəlinir. Tərsinə oxumanın 4 növü var: *bütöv sözü, sözün bir hərfini, hərflərin sırasını və sözlərin sırasını tərs oxuma.* Kökləri bir-birinə bənzəyən, eyni hərfli sözlər, xüsusilə kiçikyaşlılar tərəfindən səhv oxunur. Xüsusən bir-birinə oxşayan b-d, m-n, u-n kimi hərflər, bundan əlavə, f-t, c-e, a-o, c-ç, s-ş və s. kimi bir qrup hərflər verilmiş qarşılığı ilə əvəz edilərək səhv oxunur. Bu cür səhvlər edən şagirdlərə yanıltmaclar oxutmaq faydalıdır.

**Tələffüz xətaları** – düzgün tələffüz qaydalarına (orfoepik normalara) əməl edilməməsidir. Tələffüz xətalarına bəzən dialekt və şivələr də mənfi təsir göstərir. Məktəblərdə düzgün yazı qaydaları ilə yanaşı, düzgün tələffüz qaydaları da öyrədilməli, bununla bağlı sistematik iş aparılmalıdır.

## 10. Disleksiya nədir?

**Disleksiya yunan sözüdür və mənası "sözlərlə çətinlik çəkmək" deməkdir.** Disleksiya bir öyrənmə problemidir və bu, dinləmə, danışma, oxu, yazı, fikir irəli sürmə və riyazi qabiliyyətlərin qazanılması və istifadə edilməsi zamanı yaranan çətinliklərlə özünü göstərir. Disleksiya ilk dəfə 1881-ci ildə Dünya Nevrologiya Federasiyası tərəfindən müəyyən edilmişdir.

İnsanların bir qismi disleksiyanı xəstəlik hesab edir, bir qismi isə zəka səviyyəsinin aşağı olması ilə əlaqələndirir. Lakin bunların heç birini doğru hesab etmək olmaz. Çünki zəka səviyyəsi yüksək olan bir çox məşhurlarda da disleksiya olub. Onların zəka səviyyələri aşağı olmadığı və hətta xüsusi istedadları da olduğu sübut olunub. Məsələn, nisbilik nəzəriyyəsinin əsasını qoyan böyük alim Albert Enşteyn, Kalipso musiqisinin kralı Harry Belafonte, böyük memar, heykəltəraş və “Mona Lisa”nı rəsm dünyasına bəxş edən rəssam Leonardo da Vinçi, irlandiyalı yazıçı Yeats, "Düşünən adam" başda olmaqla bir çox məşhur əsərlərin müəllifi heykəltəraş Roden, aktyor Tom Kruz, müğənni və aktyor Şer disleksiyalı məşhurlardandır.

Disleksiyalı uşaqlarda diqqətsizlik də olur. Buna görə də disleksiyalı uşaqlarla mütəxəssis köməyi ilə diqqətin davamlılığı üçün iş aparılmalıdır. Sözlə, səslə, vizual təlim metodları seçilməlidir. İmtahan suallarını tez oxuya və cavabları yaza bilmədikləri üçün bu uşaqlardan şifahi imtahan götürmək daha effektiv olar.

Disleksiya anadangəlmə və sonradan qazanılmaqla (inkişaf pozğunluğu və zədələnməyə görə) iki qrupa ayrılır. Anadangəlmə disleksiya doğuşdan əvvəl, doğuş zamanı və doğuşdan sonrakı fəsadlara görə üç yerə bölünür. Anadangəlmə disleksiyaya zəif və rejimsiz qidalanma, hamiləlikdə keçirilən infeksiyalar və yanlış dərmandan istifadə səbəb ola bilər. Uzun və çətin doğuş zamanı uşağın nəfəs almasındakı gecikmə və sonradan keçirdiyi qızdırmalı xəstəliklər də disleksiyanın səbəblərindəndir. Bu, irsi faktorlarla da bağlı ola bilər.

Disleksiya aşağıdakı əlamətlərlə özünü göstərir:

● Dilin açılması gecikir;

● Yeni sözləri gec öyrənir;

● Hərəkət və koordinasiya pozuqluğu olur;

● İstiqaməti (sağ, sol, yuxarı, aşağı) və vaxtı (bu gün, sabah, əvvəl, sonra) təyin etməkdə çətinlik çəkir;

● Danışarkən fikrini düzgün ifadə etmək üçün uyğun sözlərdən yerində istifadə edə bilmir;

● Qafiyələnən sözləri öyrənməkdə çətinlik çəkir.

Bəzən valideynlər bu əlamətləri normal hesab edir və heç bir problem olmadığını düşünürlər. Lakin bu cür uşaqlar məktəbə başladıqdan sonra qeyd edilən əlamətlər daha kəskin formada özünü göstərir.

Məktəb vaxtı görünən əlamətlər:

- Hərfləri öyrənmədə çətinlik çəkir;
- Sözləri hecalamaqda və hərfləməkdə çətinlik çəkir;
- Sözləri və obyektlərin adını xatırlamaqda çətinlik çəkir;
- Yazıları oxumaqda çətinlik çəkir;
- Oxşar səsləri və hərfləri fərqləndirə bilmir;
- Oxuyarkən sözləri, sətirləri tez-tez ötürür;
- Ləng oxuyur;
- Yazı yazmaqda (52 əvəzinə 25, "kitab" əvəzinə "batik" yazmaq və s.) çətinlik çəkir;
- Sözlərin mənasını düzgün bilmir;
- Yazı yazmağı və oxumağı bacarır, ancaq yazıda çoxlu imla səhvləri buraxır və çox gec oxuyur.

Disleksiya diaqnozu psixoloq və ya mütəxəssis tərəfindən qoyulmalıdır. Problemi vaxtında müəyyən etmək və lazımi tədris metodları seçmək problemin həllinə kömək edə bilər. Uşaqlara vaxtında diaqnoz qoymaq və onlara lazımi yardım göstərmək vacibdir. Disleksiyanın xüsusi müalicə üsulu yoxdur, ancaq aşağıdakılar onun müalicəsində böyük rol oynayır:

- Düzgün qidalanma;
- Ailədə və cəmiyyətdə bu cür insanlara qarşı düzgün münasibət;
- Özəl dərslər (burada bu cür uşaqların öyrənmə qabiliyyətinin artması üçün daha maraqlı və əyləncəli öyrənmə metodlarından istifadə edilir).

**İstifadə edilmiş ədəbiyyat**

1. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, "Kövsər", 2011.

2. Özen M. Metinleri ekrandan okumanın anlam kurma üzerine etkisi. "The Journal of Academic Social Science Studies", 2014, №24.

3. Roxanne F. Hudson, Paige C. Pullen, Holly B. Lane, Joseph K. Torgesen. Complex Nature of Reading Fluency: A Multidimensional View. “Reading and Writing Quarterly” journal, 2008.

4. Dağ N. Okuma güçlülüğünün giderilmesinde 3P metodu ile boşluk tamamlama (Cloze) tekiğinin kullanımı üzerine bir çalışma. “Ankara Üniversitesi Eğitim bilimleri fakültesi özel eğitim dergisi”. 2010, №1.

5. Борисова Л.Г. Обучение школъников кулътуре чтения. Журнал “Началъная школа плюс до и после”. 2007, №8.

6. Artar Y.U. Etkili ve hızlı okuma teknikleri. 2011. http://www.dso.org.tr/userFiles/File/etkili_okuma2.pdf